**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİNİN YARADILMASI MƏSƏLƏLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Abbasov Nurlan Adil**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**___________________________imza**
**"____" ______________ 2022_-ci il**

# "İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİNİN YARADILMASI MƏSƏLƏLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060403-Maliyyə

**İxtisaslaşma:** Maliyyə nəzarəti və audit

**Qrup:** 636

**Magistrant:**
**Abbasov Nurlan Adil oğlu**

**________________imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Kaşiyeva Flora Şamil qızı**

**_________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**

**_________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**___________________ imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Nurlan Abbasov Adil oğlu and içirəm ki, “İşğaldan Azad Olunmuş Rayonlarda Əlverişli İnvestisiya Mühitinin Yaradılması Məsələləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normaları və istinad qaydalarına tamamilə riayət edərək və istifadə etdiyim mənbələrin hamısını ədəbiyyat siyahısında əks etdirərək yazmışam.

**“İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİNİN YARADILMASI MƏSƏLƏLƏRİ”**


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: İkinci Qarabağ müharibəsində ölkəmizin inamlı qələbəsindən sonra, işğaldan azad olunan bölgələrimizin bərpası və inkişaf etdirilməsi əsas prioritet və ən aktual məsələlərdən biridir. Müasir yanaşmanın tətbiqi baxımından investisiya mühitin yaxşılaşdırılması məsələlərində investisiya proseslərinə öz təsirlərini göstərən nüansların kompleks şəkildə tədqiq edilməsi, bu amillərin təsir dairəsinin aşkarlanması, qarşıya qoyulmuş inkişaf məqsədlərinin hər zaman diqqət mərkəzində saxlanması kimi çoxşaxəli tədbirlər xüsusi əhəmiyyət daşıyır.**

**Tədqiqatın məqsədi: Dissertasiya işinin əsas məqsədi işğaldan azad olunan rayonlardakı investisiya potensialından tam və effektiv istifadə edilməsi üçün bu bölgədə cəlbedici investisiya mühitin yaradılması məsələlərini əhatə edir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya işinin tədqiqatı keyfiyyət metoduna əsasən, təhlili isə analiz-sintez üsuluna əsasən aparılmışdır. Sistemli yanaşma, məntiqi ümumiləşdirmə, qruplaşdırma, riyazi-statistik təhlil və s üsullarından da istifadə olunmuşdur. Eyni zamanda, induksiya, deduksiya metodlarından da istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Respublikamızın, eləcə də digər dünya ölkələrinin alimlərinin bu sahədə apardıqları tədqiqat işləri, investisiyanın nəzəri-metodoloji əsasları, funksiyaları, sosial-iqtisadi təsirləri və s. istiqamətlərini əks etdirən elmi məqalələr, dərsliklər, qəzet və internet resurslarından istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat mövzusunun yeni olması ilə əlaqədar olaraq ədəbiyyat resurslarının qismən azlığıdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Dissertasiya işinin praktiki və elmi əhəmiyyəti, işğaldan azad edilmiş bölgələrin kompleks tədqiqi nəticəsində, hər bir rayonun ayrılıqda investisiya potensialının təhlili və aşkar edilməsi, bu potensialdan maksimum iqtisadi fayda əldə edilməsi ilə bağlıdır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: İşğaldan azad edilmiş torpaqlarımızda investisiya mühiti ilə bağlı araşdırma aparılan zaman mənbə olaraq istifadə oluna bilər.**



**Açar sözlər: investisiya, işğaldan azad edilmiş ərazilər, tədbirlər planı, əhalini qayıdışı**

## “ISSUES OF CREATING A FAVORABLE INVESTMENT CLIMATE IN THE LIBERATED AREAS”


## SUMMARY

**The actuality of the subject: After the confident victory of our country in the second Karabakh War, the restoration and development of our liberated regions is one of the main priorities and most pressing issues. From modern aspects of the processes and mechanisms of forming an investment climate, it is necessary to systematically investigate various factors affecting these processes, to determine their impact, to focus in the context of the country's economic development priorities, to predict development directions, etc. A comprehensive approach to such measures is one of the essential factors.**

**Goals and tasks of the research: The essential aim of the study covers the issue of creating an attractive investment environment in this region in order to fully and effectively use the investment potential in the regions liberated from occupation.**

**Used research methods: The research for the dissertation was carried out according to the qualitative method, and the analysis was carried out according to the method of analysis-synthesis. Systematic approach, logical generalization, grouping, mathematical-statistical analysis, and other methods were also used. At the same time, the methods used in the study are induction and deduction.**

**The source of information in the research : The dissertation covers scientific articles, textbooks, newspapers, and Internet resources reflecting the theoretical and methodological basis, functions, and socio-economic effects of investment carried out by scientists in our Republic as well as other countries.**

**Restrictions of research: It is a partial minority of literature resources due to the new nature of the subject of the study.**

**The novelty and practical results of investigation: The practical and scientific significance of the dissertation is thanks to a result of a complex study of the regions liberated from occupation, the analysis and detection of the investment potential of each district separately, the maximum economic benefit from this potential.**

**Scientific-practical essence of outcome: It may contribute to researches as a source when research is carried out on the investment environment in our liberated lands.**



**Keywords: investment, liberated territories, action plan, return of population**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **İƏİT** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **İÇS** | İnvestisiyalara dair Çərçivə Sənədi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **KOB** | Kiçik və Orta Biznes |
| **XBİ** | Xarici Birbaşa İnvestisiya |
| **ATƏT** | Avropada Təhlükəzsizlik və Əməkdaşlıq təşkilatı |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |

MÜNDƏRİCAT

**GİRİŞ**......................................................................................................**8**

**I FƏSİL. İNVESTİSİYA SİYASƏTİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ**......................................................................................**12**

1.1. Əlverişli investisiya mühitinin yaradılmasının nəzəri-metodoloji məsələləri... 12

1.2. Əlverişli investisiya mühitinin formalaşmasında dünya təcrübəsindən istifadə..........................................................................................................18

1.3. İnvestisiya fəaliyyətinin normativ-hüquqi əsasları..........................................24

**II FƏSİL. MÖVCUD İNVESTİSİYA POTENSİALININ TƏHLİLİ VƏ BU POTENSİALDAN EFFEKTİV İSTİFADƏ ÜÇÜN GÖRÜLMƏSİ ZƏRURİ OLAN İŞLƏR**.....................................................................................................**28**

2.1. İşğaldan azad olunmuş rayonlarda investisiya siyasətinin əsas istiqamətləri..........................................................................................28

2.2. İnvestisiya potensialının müqayisəli təhlili və əlverişli mühitin yaradılması məsələləri.........................................................................................34

**III FƏSİL. İNVESTİSİYA SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ VƏ İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ**................................................**45**

3.1. İşğaldan azad olunmuş rayonlara əhalinin qayıdışı planı istiqamətində görülməsi zəruri olan tədbirlər..........................................................................................45

3.2. Həyata keçirilməsi nəzərdə tutulan kompleks tədbirlər planının məşğulluq siyasətinə və əhalinin rifah səviyyəsinə təsirinin qiymətləndirilməsi...................52

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**.................................................................................**66**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**...........................................**68**

Şəkillərin Siyahısı...............................................................................................73

Qrafiklərin Siyahısı..............................................................................................73

# GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycan müstəqillik qazandıqdan sonra dünya miqyasında stabil iqtisadiyyata malik olmaq və müxtəlif sahələrdəki potensialından tam səmərəli istifadə edə bilmək üçün açıq qapı siyasətini reallaşdırdı. Burada əsas məqsəd xarici investorlar üçün cəlbedici mühitin yaradılması idi.

Ölkəmizdə aparılan uğurlu islahatlar nəticəsində əhəmiyyətli sosial-iqtisadi dəyişikliklər baş vermiş, makroiqtisadi sabitlik əldə edilmiş, iqtisadi artım templəri təmin olunmuşdur. Hər bir ölkənin iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsində mühüm rola malik olan amillərdən biri də investisiya qoyuluşlarıdır. Son illərdə Azərbaycanda həyata keçirilən investisiya siyasəti, bu sahədə aparılan islahatlar ölkəmizin mövcud potensialından səmərəli istifadəsi üçün çox əhəmiyyətli rol oynamışdır. Hal-hazırda da bu istiqamətdə əhəmiyyətli işlər görülməkdədir.

İkinci Qarabağ müharibəsində ölkəmizin inamlı qələbəsindən sonra, işğaldan azad olunan bölgələrimizin bərpası və inkişaf etdirilməsi əsas prioritet və ən aktual məsələlərdən biridir. Müasir yanaşmanın tətbiqi baxımından investisiya mühitin yaxşılaşdırılması məsələlərində investisiya proseslərinə öz təsirlərini göstərən nüansların kompleks şəkildə tədqiq edilməsi, bu amillərin təsir dairəsinin aşkarlanması, qarşıya qoyulmuş inkişaf məqsədlərinin hər zaman diqqət mərkəzində saxlanması kimi çoxşaxəli tədbirlər xüsusi əhəmiyyət daşıyır. Buna nail olmaq üçün daxili və xarici investisiya siyasətində prioritet istiqamətlərin müəyyənləşdirilməsi və zəruri addımların atılması məsələləri öncül iqtisadi hədəflərimizdəndir. Buna görə də, mövzunun aktuallığı mövzunun elmi cəhətdən araşdırılmasın zəruriliyini təmin edir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İqtisadiyyatın istənilən həlqəsi üçün investisiya, istər mikro səviyyədə, istərsə də makro səviyyədə spesifik təsir gücünə malikdir. Ona görə də iqtisad elmi formalaşmağa başladığı dövrdən iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. İnvestisiya fəaliyyəti dəyişən iqtisadi sferada müxtəlif təsir gücünə malik olan amillərin təsiri altında baş verən dinamik və

çoxşaxəli proses olaraq, iqtisadi nəzəriyyənin əsas və mürəkkəb tədqiqat obyektlərindən biri hesab olunur.

Ölkəmizdə də bu sahə ilə bağlı əhəmiyyətli araşdırmalar aparmış, müxtəlif məqalələr, kitabların müəllifi olan bir çox iqtisadçı alimlər vardır. İ.Seyfullayev, Q.Əliyev, S.İsayev, M.Meybullayev, Q.Manafov, H.Aslanov və digərləri öz tədqiqatlarında bu məsələyə diqqət ayırmışlar.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi işğaldan azad olunan rayonlardakı investisiya potensialından tam və effektiv istifadə edilməsi üçün bu bölgədə cəlbedici investisiya mühitin yaradılması məsələlərini əhatə edir. Müəyyən olunmuş məqsədlərə çatmaq üçün bir sıra vəzifələr qarşıya qoyulmuşdur:

- işğaldan azad edilmiş bölgələrin hər bir rayon üzrə ayrılıqda tədqiqi və müxtəlif sahələr üzrə potensialının üzə çıxarılması;
- işğaldan azad olunmuş bölgələrdə sağlam investisiya mühitinin yaradılması və yatırım edilməsi nəzərdə tutulan sahələrin inkişaf perspektivlərinin analizi;
- investorların maraqlarının və gözləntilərinin araşdırılması və bu meyarlar əsasında güzəştli şərtlərlə investisiya proqramlarının təşkili məsələləri;
- Azad iqtisadi zonaların yaradılması üçün dünya təcrübəsinin araşdırılması və bu təcrübələrin ölkəmizdə tətbiqi istiqamətləri;
- Ağıllı kənd layihələrinin infrastrukturun bərpasına və əhalinin yaşam şəraitinin yaxşılaşdırılmasına müsbət təsirlərinin qiymətləndirilməsi və s.

**Tədqiqatın obyekti və predmeti:** İşğaldan azad olunmuş rayonlarda mövcud vəziyyətin, problemlərin, investisiya potensialının araşdırılması və bu potensialdan maksimum iqtisadi səmərə əldə edilməsi üçün görülməsi əhəmiyyətli olan işlər tədqiqatın obyektini təşkil edir. İnvestisiya siyasətinin işğaldan azad edilmiş rayonlara tətbiqi və inkişaf istiqamətləri tədqiqatın predmetini təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiya işinin tədqiqatı keyfiyyət metoduna əsasən, təhlili isə analiz-sintez üsuluna əsasən aparılmışdır. Sistemli yanaşma, məntiqi ümumiləşdirmə, qruplaşdırma, riyazi-statistik təhlil və s üsullarından da istifadə

olunmuşdur. Eyni zamanda, induksiya, deduksiya metodlarından da istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Respublikamızın, eləcə də digər dünya ölkələrinin alimlərinin bu sahədə apardıqları tədqiqat işləri, investisiyanın nəzəri-metodoloji əsasları, funksiyaları, sosial-iqtisadi təsirləri və s. istiqamətlərini əks etdirən elmi məqalələr, dərsliklər, qəzet və internet resurslarından istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat mövzusunun yeni olması ilə əlaqədar olaraq ədəbiyyat resurslarının qismən azlığıdır.

**Tədqiqatın elmi yeniliyi:** İşğaldan azad edilmiş rayonlarda yaradılmaqda olan sənaye parkları, sənaye mərkəzləri ümümilikdə bu bölgənin sənaye dirçəlişinin əsas meyarlarından olacaqdır. Həm dövlət proqramları, həm də sahibkarların təşəbbüsü ilə yeni iş yerlərinin yaranması prosesində əməkdaşlıq sayəsində məşğulluq səviyyəsinin yüksəldilməsində effektiv nəticələrin əldə edilməsi imkanı tədqiqat işində qeyd edilmişdir. Burada eyni zamanda, müxtəlif sahələrin inkişafında prioritet mənbə kimi qiymətləndirilən xarici investisiya qoyuluşlarının təşviqi istiqamətində stimullaşdırıcı siyasətin tətbiq edilməsi və müasir tələblərə cavab verən investisiya modelinin yaradılmasının yenidənqurma işlərinin inkişafındakı rolu əsaslandırılmışdır. Güzəştli vergi və gömrük rüsumlarının tətbiq edilməsi, əlverişli yatırım mühitinin təmin edilməsi və Azad İqtisadi Zonaların yaradılması məsələlərinin investisiya qoyuluşlarındakı əhəmiyyətli təsiri haqqında əsaslandırmalar edilmiş və təkliflər qeyd olunmuşdur. İnvestisiya mühitinin qiymətləndirilməsi çərçivəsində müxtəlif metodologiyalara müraciət edilmiş, regional investisiya potensialının bir neçə xüsusi faktorları üzərindən işğaldan azad etdiyimiz torpaqların investisiya mühitinin qiymətləndirilməsi üzrə müxtəlif amilləri qeyd olunmuşdur. Yaşıl Enerji Zonalarının təşkili ilə ekoloji təmiz sistemlərdən effektiv istifadə üçün zəmin yaranmışdır. Nəqliyyat dəhlizlərinin, xüsusən də Zəngəzur dəhlizinin açılması ilə ölkəmizin tranzit mövqeyi daha da güclənəcək. Tədqiqat işində beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin ölkə iqtisadiyyatındakı rolu və gələcək perspektivləri vurğulanmışdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Dissertasiya işinin praktiki və elmi əhəmiyyəti, işğaldan azad edilmiş bölgələrin kompleks tədqiqi nəticəsində, hər bir rayonun ayrılıqda investisiya potensialının təhlili və aşkar edilməsi, bu potensialdan maksimum iqtisadi fayda əldə edilməsi ilə bağlıdır. İnvestisiya qoyuluşu üçün investorlar tərəfindən xüsusi diqqət yetirilən məqamların araşdırılması və bu kimi investisiya cəlbediciliyini artıran məqamların inkişaf strategiyası müəyyən edilmişdir. Azad iqtisadi zonaların yaradılması, xüsusi vergi güzəştləri, gömrük rüsumları və bu kimi imtiyazların verilməsi ilə bu bölgələrin investisiya cəlbediciliyini artırmaq olar. Bütün bu sadalananların tətbiqi istiqamətləri, əsas komponent kimi hesab edilən mexanizmlər gələcək dövrləri də əhatə edəcək şəkildə kompleksləşməlidir. İnfrastrukturun bərpa edilməsi, çoxşaxəli fəaliyyət növlərinin səmərəli təşkilindən sonra bu bölgələrdən əldə olunacaq iqtisadi fayda əsasında, ölkənin ümümilikdə iqtisadi gücünün artımına əlverişli zəmin yaranacaqdır. Həmçinin, işsizlik və yoxsulluq dərəcələri, əhalinin rifah səviyyəsinin yüksəldilməsi kimi vacib məsələlərin həlli istiqamətində çox əhəmiyyətli irəliləyişlərin olacağı proqnoz edilir.

**Qarabağ Azərbaycandır!**

**Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev**

# I FƏSİL. İNVESTİSİYA SİYASƏTİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

## 1.1 Əlverişli investisiya mühitinin yaradılmasının nəzəri-metodoloji məsələləri

Müasir dövrdə hər bir ölkənin inkişafında investisiyaların rolu əhəmiyyətli dərəcədə böyükdür. Onlar müxtəlif məzmuna və tərkibə məxsusdur. İnvestisiyalar mövcud olan resurslardan istifadə edilməsi nəticəsində müxtəlif resursların əldə edilməsini səciyyələndirir. İnvestisiyalar həm də iqtisadi inkişafın yüksək həddə çatdırılması üçün maliyyə ehtiyatlarının təmin edilməsi funksiyasını daşıyır (İsayev S., 2011).

İnvestisiyalar gəlirin təmin olunması və mövcud olan pul vəasitlərinin dəyərinin artırılması kimi məsələləri də özundə cəmləşdirir. Bu yatırımlar pul vəsaitlərinin banklara depozit kimi qoyulması, yaxud insan kapitalının formalaşdırılması üçün istiqamətləndirilməsi, istehsal gücünün artırılması üçün istehsal edilmiş məhsulun müəyyən qisminin istifadəsi, qiymətli kağızların alınmasını və s.özündə ehtiva edir (Əliyev Q., 2008).

İnvestisiyalar iqtisadi artıma, ölkə iqtisadiyyatının rəqabətliliyinə, əhalinin yaşam səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaradır. Mikroiqtisadiyyatda investisiya yeni kapitalın istehsalın maddi elementlərinin yaradılması kimi başa düşülür. İnvestisiyanın mahiyyəti bəzi nəzərliyyələrə görə real və maliyyə aktivlərinin əldə edilməsi kimi qiymətləndirilir. İnvestisiya siyasəti isə bütün bunların həyata keçirilməsində, iqtisadi inkişaf və makroiqtisadi sabitliyin təmin olunması istiqamətində prioritet rol oynayır. Dövlətin investisiya siyasətində başlıca rolu investorlar və investisiya obyektləri arasındakı münasibətlərdə qaydaları tənzimləmək, iqtisadi sistemin sərbəst inkişaf etməsi baxımından şərait yaratmaqdır. Bu siyasət tənzimləmə və stimullaşdırma olmaqla iki yerə bölünür.

Hər bir manat yatırılan pul üçün maksimum qazanc əldə edilməsi tənzimləmə sisteminin əsas hədəf nöqtəsi hesab olunur. İnvestisiya siyasətinin digər qolu olan

stimullaşdırıcı siyasətdə görülən tədbirlər ölkəyə mümkün qədər çox investisiya qoyuluşunu təmin etməyə istiqamətlənir. Yeni, müasir standartlara uyğun investisiya siyasəti formalaşdırmaqla xarici investisiyaların iqtisadiyyata təşviqi istiqamətində əhəmiyyətli nəticələr əldə etmək olar. İnvestisiya qoyuluşlarının kəmiyyəti və xüsusi istiqamətləri hərtərəfli formada tədqiq edilməlidir. Ölkənin sosial və iqtisadi cəhətdən yüksəlişi üçün zəruri olan müxtəlif resursların ölkəyə cəlb olunması investisiya siyasətinin başlıca vəzifələrindən hesab olunur. Cəlb olunmuş resursların effektiv və səmərəli istifadəsi baxımından münasib investisiya mühitinin formalaşdırılması başlıca prioritet olmalıdır.

Sahibkarların səmərəli fəaliyyəti üçün əlverişli şərait yaratmaq, iqtisadiyyatın strukturlarında yeniliklər tətbiq etmək, ölkəyə xarici sərmayə yatırımlarını artırmaq üçün investorların maraqlarını nəzərə almaq və onların qarşısında maneə ola biləcək məqamları araşdıraraq, onların aradan qaldırılması istiqamətində tədbirlər görmək, güzəştlər sistemini daha da təkmil səviyyəyə çatdırmaq qarşıya qoyulmuş məqsədlərə nail olmağın əsas şərtləndirici məqamlarındandır (Əzizova G., 2012).

İnvestisiya anlayışı müxtəlif iqtisadçı alimlər tərəfindən fərqli formalarda şərh olunmuşdur. Misal üçün, P. Samuelsona görə bu anlayış növbəti illərdə nəzərdə tutulan istehlakın geniş vüsət almasına nail olmaqdır. Bunun üçün isə o, mövcud məaliyyə resurslarının hazırki istehlaka xərclənməsini uyğun hesab etmir. Eyni zamanda, Samuelsona göre, bu kimi nüanslar kapitalın formalaşması baxımından da əhəmiyyətə malikdir. C.M. Keyns isə bu anlayışı lazımi fondlara istifadə olunan kapital, eyni zamanda, təşkilatların öz maliyyə vəziyyətini yaxşılaşdırması kimi izah edirdi. O, iqtisadi inkişaf və sabitliyə nail olmaq üçün investisiya yatırımlarının xüsusi əhəmiyyətini qeyd edirdi. Onun fikrincə, investisiya qoyuluşlarındakı dəyişikliklərin həcmi, iqtisadi aktivliyin əsas meyarlarındandır. Tələbin genişləndirilməsində müstəsna rol oynayan investisiyaları Keynsə görə aşağıdakı üsullarla artırmaq olar:

- bank və kredit təşkilatları tərəfindən faiz dərəcələrinin aşağı salınması;
- dövlət kapital qoyuluşlarını artırmaq;
- kapital qoyuluşlarının səmərə və effektivliyinin artırılması.

Keyns nəzəriyyəsinə görə, multiplikator anlayışı da çox əhəmiyyətli rol oynayır. Belə ki, o, milli gəlir ilə investisiya qoyuluşları arasındakı asılılıq əlaqəsini aşkar edərək, onu multiplikator effekti adlandırmışdır. Bu anlayışı bir cümlə ilə izah etsək, milli gəlirin artımının investisiya məbləğindəki artımdan asılılığını ifadə edən əmsal kimi izah edə bilərik. Bu əmsal o zaman artır ki, istehlakçılar öz gəlirlərindəki artımdan istehlak həcminin artırılması üçün istifadə edirlər. Əksinə olaraq, istehlak xərclərinin azaldılaraq əsas hədəfin yığıma yönəlməsi nəticəsində isə bu əmsal azalır.

Görkəmli ABŞ iqtisadçısı, Nobel mükafatı laureatı Ceyms Tobin tərəfindən hazırlanmış portfel investisiyalarının seçilməsi nəzəriyyəsində, investorların daha yüksək risklə, az riskli fəaliyyəti optimallaşdırmağa çalışdıqlarını qeyd edib.

Sosial, siyasi, iqtisadi və maliyyə faktorlarını özundə cəmləşdirən investsiya mühiti bazarda olan risk səviyyəsini və cəlbediciliyi təyin etməklə yanaşı həm daxili, həm də xarici yatırım axınlarını təmin edir. Bildiyimiz kimi, ölkənin investisiya potensialı baş vermiş siyasi və sosial-iqtisadi dəyişikliklərlə bağlıdır. Bu cür imkanlar isə respublikamızın müstəqil dövlət kimi təşəkkül tapmasından sonra yaranmış, bazar iqtisadiyyatına keçidikdən sonra daha da inkişaf etmişdir. İqtsadi islahatlar, neft strategiyasının uğurlu nəticələri və sahibkarlıq fəaliyyəti üçün yeni iqtisadi mühitin yaradılması, dövlətimiz tərəfindən verilən önəmli qərarlar və aparılan düzgün siyasətin nəticələrindəndir. Habelə, ayrı-ayrılıqda hər bir bölgəmizin sosial və iqtisadi baxımdan inkişaf etməsi, kiçik və orta biznesin, sahibkarlığın inkişaf etməsi kimi nailiyyətlər də bu qəbildəndir.

Azərbaycanın qeyri-neft sektoru da çox geniş imkanlara malikdir. Buna misal olaraq, sənaye, kənd təsərrüfatı, turizm sahələrini misal göstərmək olar. Ölkənin qeyri-neft potensialının inkişafı, onun infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara uyğun rəqabətqabiliyyətli ixracat məhsulları istehsal etməyə qadir olan sənaye sektorunun yaradılması həm ölkənin daxili iqtisadi inkişaf modelinin, həm də dünya iqtisadiyyatının müasir inkişaf meyillərinin tələbləri ilə bağlıdır.

İnvestisiya faktoru iqtisadiyyatda vacib rola malik olduğundan, Respublikanın tanınmış alimləri də bu məsələyə tədqiqatlarında yer vermiş və bu faktorun səmərəliliyini artırmaq üçün ölkəmizdəki şəraitə uyğun, fərqli istiqamətlərdə araşdırmalar aparmışlar. Bu alimlər sırasında Z.Səmədzadə, Ş.Muradov, Ə.Bayramov, Ş. Axundov, Ə.Əlirzayev, A.Şəkərəliyev, R. Əliyev, T.Hüseynov, İ.Qarayev, Ş.Qafarov, T.Quliyev, M.Meybullayev, Ş.Səmədzadə, S.Salahov, K.Şahbazov, R.Həsənov, M.Əhmədov, X.Kazımlı, Q.Manafov və başqaları məsələyə diqqət yetirmişlər.

İnvestorların yatırım etmələri üçün nəzər yetirdikləri nüanslardan olan əlverişli şəraitin olmasını əks etdirən anlayış məhz investisiya mühitidir. Yatırım fəaliyyətinin baş verdiyi mühit investisiya mühitidir. Bu mühit müəyyən bir-biri ilə bağlı olan faktorların təsiri ilə yaranır. Yatırım şəraitin təkmilləşməsinə investisiya siyasəti və investisiya obyektlərinin yerinə yetirdiyi işlər öz təsirlərini göstərir. İnvestisiya obyektlərinin gedişatda əhəmiyyətini artıran əsas məsələ bazar münasibətlərinin təkmilləşdirilməsidir. Bazarın əhatəli və dəqiq tədqiq edilməsi nəticəsində sahibkarlar istehsal həcminin hansı səviyyədə saxlanılmasını, hansı bazarda və qiymət səviyyəsində satılarsa effektiv olacağını müəyyənləşdirirlər. Əlverişli investisiya mühitinin formalaşması, investisiya bazarının seqmentləşdirilməsinin inkişafı, investisiya əmtəələri və texnologiyalarının tərəqqisi, eləcə də, müəssisələrin investisiya imkanlarının artması investisiya menecerlərinə strateji və operativ investisiya qərarları qəbul etmək üçün geniş fəaliyyət sahəsi təklif edir. Bazar şəraitində investisiya fəaliyyətinin müasir prinsiplərini, mexanizmlərini və metodları öyrənmək və onlardan praktiki istifadə etmək müəssisələrin keyfiyyətcə yeni iqtisadi inkişaf mərhələsinə keçməsinə şərait yaradacaqdır (Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H., 2012).

Əlverişli investisiya mühitinin formalaşması üçün mühüm olan amillər sırasında, müasir dünya ölkələrinin təcrübəsinin dərindən və sistemli şəkildə öyrənilməsi, dəyərləndirilməsi və tətbiqinin səmərəli təşkili əhəmiyyətli yer tutur.

Dünya Bankı investisiya mühitini iş yerlərinin yaranması və fəaliyyət sahələrinin genişlənməsinə yönəldilmiş imkanların olması kimi tərif edir.

İnvestisiya mühiti üç istiqamətdə qiymətləndirilə bilər:

• makro-iqtisadi vəziyyətə təsir göstərən amillərdən olan pul siyasəti, vergi və ticarət siyasətləri;

• institutların mövcud olması şəraitində keyfiyyətli idarəetmənin əsasları;

• infrastrukturun təkmilləşdirilərək müasir standartlara uyğunlaşdırılması ( Allahverdiyev H.B, Məmmədov Z.T., 2003).

Münbit investisiya iqliminin formalaşdırılması ilə aktivliyin pik həddinə çatmaq olar ki, bu da öz nöbəsində münasib investisiya bazarının yaranması mexanizmini özundə ehtiva edir. Bu mexanizmin formalaşması üçün bir sıra işlər görülməlidir:

- vergi sisteminin daha da inkişaf etdirilməsi və müasir standartlara uyğun formada təşkil olunması;
- İnvestorların ölkəyə cəlb olunması istiqamətində müəyyən vergi və gömrük güzəştlərini nəzərdə tutan xüsusi rejmin tətbiq edilməsi.
- İnvestorların hüquq və mənafelərinin qorunub saxlanılması;
- Sabit məzənnə sisteminin formalaşdırılması, inflyasiya səviyyəsinin normal səviyyəsinə nail olmaq, maliyyə lizinqinin daha da təkmilləşdirilməsi, anti-inhisar siyasətinin tətbiq edilməsi, girovlardan istifadə edilməsi yolu ilə kreditləşmənin mümkünlüyünün asanlaşdırılması;
- İnvestorlar üçün bir sıra təbii resurslardan, torpaqdan imtiyazlı şəkildə istifadənin mümkün edilməsi;

Müəssisələrin işlərinin nəticələri və dövlətin yürütdüyü investisiya siyasəti əlverişli yatırım şəraitinin formalaşması mexanizmini təşkil edir (Əzizova G, 2012). İnvestisiya mühitinin formalaşmasına bir sıra amillər təsir edir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

**Şəkil 1: İnvestisiya mühitinin formalaşmasına təsir edən amillər**




**Mənbə:** Aslanov H.H. (2012), Xarici investisiyaların cəlb edilməsi və onlara təsir edən amillərin təhlili. Bakı, Dövlət Universitetinin xəbərləri, Sosial-siyasi elmlər seriyası, N1

Ölkənin geoiqtisadi mövqeyini, dövlətin iqtisadiyyata birbaşa təsirini, ölkənin yeritdiyi siyasəti, siyasi amilin əhatə etdiyi məsələlərə misal göstərmək olar.

İnvestisiya mühitinə təsir göstərə bilən iqtisadi amillərə iqtisadiyyatın ümumi vəziyyəti, sərbəst şəkildə iqtisadi fəaliyyətlə məşğul olmağın mümkünlüyü, infrastrukturun təkmilləşdirilməsi və s. daxildir.

Sosial amillər qrupuna cəmiyyətdəki insanların savadlılığı, ölkədəki vətəndaşların xarici yatırıma yanaşması, təşkilatçılıq qabiliyyəti və s. aiddir.

Qlobal amillər qrupuna isə beynəlxalq səviyyədə gedən proseslər, siyasi konfliktlər, iqtisadi böhranlar aidddir və bu faktorlar investisiya mühitinə təsir göstərə bilir (Aslanov H. 2012).

İngiltərədən olan iqtisadçı Con Meynard Keynsin əsərində investisiya fəaliyyətinin qanunauyğunluqları dəqiq və əhatəli şəkildə qeyd olunmuşdur. 1923-1933-cü illər aralığında "böyük depressiya" böhranının hökm sürməsi ilə C.M.Keynsin nəzəriyyəsinin ortaya çıxması üçün uyğun vəziyyət yarandı. Bu nəzəriyyə yatırım proseslərinin makroiqtisadi cəhətdən tədqiqini əhatə edirdi. "Sey qanunu" klassik məktəbin ən önəmli prinsiplərindən hesab olunur. Qanuna əsasən təkliflər sırf tələblərin ödənməsi istiqamətində istehsalı nəzərdə tutur. Bazarda

qiymətlərin çevikliyi resurslardan dərininə istifadəni təmin edir. David Rikardonun, Artur Sessil Piqunun, Frensis İsidor Edkortun kimi C.M.Keyns iqtisadi məktəbinin nümayəndələri öz əsərlərində bəhs edilən müddəalara tənqidi yanaşaraq, bazarda təklifdən asılı olmadan tələbə təsir göstərən amillərin bu müddəalarda nəzərə alınmadığını qeyd edirdi. Həmçinin, bu amillərin istehsal həcmlərini azaltdığını və işsizliyin yaranmasına gətirib çıxardığını vurğulayırdı.

## 1.2 Əlverişli investisiya mühitinin formalaşmasında dünya təcrübəsindən istifadə

Hər bir ölkənin investisiya mühitinin hansı səviyyədə olması həm kiçik və orta biznesin yüksədilməsi potensialını, həm də birbaşa xarici investisiyaların ölkəyə yönədilməsi potensialını müəyyən edən ən əsas amillərdən biridir. Bu mühitinin formalaşdırılması və təkmilləşdirilməsi üçün ölkədə ilk növbədə, makroiqtisadi sabitlik təmin edilməli, ölkənin bütün ərazisində iqtisadiyyatın hərtərəfli inkişafına şərait yaradan daxili və xarici investisiya axınlarının səmərəli və aktiv mühiti yaradılmalı və bunlarla bağlı müəyyən məsələlərə xüsusi diqqət yetirilməlidir:

– maliyyə-investisiya aspektləri çərçivəsində hesabatlılıq prinsipləri dünya standartları normasında qorunmalı;

– investisiya fəaliyyətinin stimullaşdırılması istiqamətində dövlət tərəfindən ardıcıl tədbirlər görülməli;

– infrastrukturun yaradılması, təşkili və sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələlərinə diqqət yetirilməlidir.

İndiki dövrdə investisiya mühitinin formalaşdırılması və inkişaf etdirilməsi məsələsi aktual olaraq qalmaqdadır. Dünyanın inkişaf etmiş və əsasən, investisiyaların ixracı üzrə ixtisaslaşan ölkələrdə belə investisiya mexanizmlərin təkmilləşdirilməsi və yenilənməsi məsələləri ortaya çıxmışdır. İlk növbədə, qlobal iqtisadi çağırışlarla bağlı olaraq, investisiya mühitinin səmərəliliyinin və effektivliyinin təmin edilməsi hər bir dövlətin investisiya siyasətinin prioritet istiqamətini təşkil etməlidir. Bu halda, əsas problem ölkədə mövcud olan investisiya

mühitinin cəlbediciliyinin təmin edilməsi və xarici investorların ölkəyə gəlməsinin stimullaşdırılmasından ibarətdir. Belə ki, hər bir investorla əməkdaşlıq tədbirlərinin aparılması onun ölkəyə investisiya yatırılmasının təminatı kimi kifayət etməyə bilər. Əsas məsələ, ölkənin özündə investisiya mühitinin sağlam və ədalətli olmasından ibarətdir. Dövlətin bununla bağlı müntəzəm tədbirləri davam etməli və fəaliyyət mexanizmlərini dəqiqləşdirilməlidir.

Müasir dövrdə dünya ölkələrində investisiya mühitinin formalaşması təcrübəsinin əsaslı və sistemli şəkildə öyrənilməsi, ölkəmizin maliyyə-investisiya siyasətinin və inkişaf istiqamətlərinin əsas xüsusiyyətlərinin nəzərə alınması, bu sahədə dünya təcrübəsinin ölkəmizdə tətbiqinin səmərəli təşkili vacib məsələlər kimi xarakterizə olunurlar. Bu təcrübələrin tətbiqi istiqamətində yalnız investisiya ilə bağlı olan məsələlərə deyil, həmçinin ümümi iqtisadi şəraitin hansı səviyyədə olduğuna, bu mərhələlərə qədər keçilmiş yola, hansı tədbirlərin görüldüyününə, əldə olunmuş uğurlu nəticələrin stabil olaraq saxlanması, gələcəkyönümlü tədbirlər və strateji inkişaf yönlərinə də nəzər yetirmək çox vacibdir. Çünki istənilən investisiya mühiti effektiv olan ölkəyə diqqət yetirsək, iqtisadi islahatların və tədbirlərin xüsusi rolunu görə bilərik.

Ümumiyyətlə, hər bir dövlət ölkədəki iş adamlarının rahat formada bizneslə məşğul olmaqlarını təmin etməyin lehinədir. Dövlətin atdığı bir çox addımlar bu prosesi sadələşdirməyə xidmət edə bilər. Bunlara misal olaraq, biznesin fəaliyyəti üçün icazə verilməsi, lisenziyaların əldə olunması proseslərinin asanlaşdırılması, fəaliyyətlə bağlı qanunlarda dəyişikliklərə qərar verilməsi, infrastrukturun təkmil səviyyəyə çadırılması və s. işləri göstərmək olar. Xarici investisiya axınına nail olmaq istəyən dövlətlər bunun üçün qabaqcadan tədbirlər görməlidirlər.

Xarici Birbaşa İnvestisiya yatırımlarının inkişafına əks təsir göstərə biləcək amillərə rəqabətədavamsız bazar iqtisadiyyatı şəraitini, vergi sistemində qeyri-qənaətbəxş normativ bazanı misal göstərmək olar.

İnvestisiya mühitinin mahiyyəti çox vacib olduğundan bir çox ölkələr onu qiymətləndirə bilmək üçün İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Çərçivə sənədindən istifadə edirlər. Qiymətləndirmə baxımından hərtərəfli vasitə hesab

olunan bu sənəd şəraitin səmərəliliyini araşdırılması baxımından informasiya mənbəyi və spesifik suallar xarakteri daşıyır.

Qanun və aktların qəbulundan əvvəl onların müzakirəsi və fikir mübadiləsi üçün hökumətlər vaxt verərək şəffaflığı və qanunvericilikdə stabilliyi gücləndirə bilərlər. Həmçinin qlobal standartların təbiqi və qərarların nəşr edilməsi ilə də bu istiqamətdə önəmli addımlar atmaq mümkündür. Bizneslər ilə dövlət orqanları arasındakı əlaqələri, ünsiyyət formalarını elektron sistem vasitəsilə diqqətdə saxlayaraq tənzimləmək müasir və effektiv üsul kimi qiymətləndirilə bilər (Faydalı biznes və investisiya mühitinə dair vəsait. ATƏT., 2006).

Sabit qanunvericilik sisteminin mövcud olması investisiya şəraitinin və biznes mühitinin dayanıqlılığını şərtləndirən ən vacib amillərdən hesab edilir. Daima dəyişiklik baş verməsi halları investorlar üçün öz gələcək biznes planlarını və gəlirlərini planlaşdırmaqda çətinliklər yaradır və əlverişsiz şəraitin yarana biləcəyi ilə bağlı risklərin mövcudluğu hissinə yol açır. Əlavə olaraq, mühasibatlıq, audit, ətraf mühitə təsir və s. kimi biznes fəaliyyətlərinə təsir göstərən dəyişikliklərlə bağlı xərclərin artması da investorların mənfi hal kimi qiymətləndirdikləri məqamlardandır.

Avropadan olan bir mədən sənayesi şirkəti hissələrinin dövriyyəyə buraxılması zamanı bir bəyanatı sənədlər içərisinə əlavə etmişdir. Bəyanatda qeyd olunurdu ki, nəzərdə tutulan öhtəliklərin yerinə yetirilməsi və xərclərin qarşılanması bir sıra amillərdən birbaşa asılıdır. Bu amillərə fəaliyyətin göstərildiyi ölkələrdəki stabil siyasi və iqtisadi vəziyyəti, bu sahə ilə bağlı hüquqların təstiqlənməsi prosesini, qanunvericilik sisteminin sabitliyini və s. aid etmək olar.

Bu bəyanat fəaliyyətin göstərildiyi ölkədə olan sabit qanunvericilik sisteminin sərmayəçilərə yatırılacaq investisiyalar qarşılığında gələcəkdəki mümkün gəlirlərinə təsiri barədə öncədən xəbərdarlıq nümunəsidir.

Bu bəyanat ölkədə baş verə biləcək sadalanan dəyişikliklərin olması nəticəsində investorlara təsirlərin ola biləcəyi barəsində xəbərdarlığı əks etdirir. Əgər əldə ediləcək gəlir səviyyəsi mövcud riskləri üstələməzsə, bu zaman investorun bu ölkəyə yatırım etmək fikri dəyişə bilər və o, digər ölkələrə sərmaye yatıra bilər.

Avropa İttifaqında Acquis Communautaire adlı qanunlar və tələblər toplusunda investorların da maraqlarını əhatə edən qanunlar öz əksini tapmışdır. Bu tip qanun və qaydalar toplusu olan ölkələrə yatırım etməyə investorlarda daha çox maraq və inam müşahidə olunmaqdadır. Belə olan halda, bizneslərini başqa sahələrə də şaxələndirmək və daha geniş bazarlara çıxmaq şansı əldə edirlər.

Adətən, gözlənilməz qəbul edilmiş qərarlar sərmayəçilər tərəfindən müsbət qarşılanmır. Əgər irəli sürülən təşəbbüslər haqqında əvvəlcədən sərmayəçilərə və iş adamlarına məlumat verilərsə, onlara ehtiyac duyulduğu tədqirdə öz bizneslərində düzəlişlər etmələrinə şərait yaranmış olur.

Eyni zamanda, biznesmenlərin etdikləri şərhlər müsbət dəyişikliklər baxımından çox əhəmiyyətlidir. Biznes mühitindən əldə edilən rəylər adətən biznes mühitinin inkişafında əhəmiyyətli yer tutur.

Müxtəlif datalar hesabına bir çox ölkələrin investisiya cəlb edilməsi ilə bağlı istifadə etdiyi müqayisəli qiymətləndirmə metodu əhatə dairəsini artırmaqdadır. Ekoloji dəyişikliklər, siyasi, iqtisadi və s. bir neçə fərqli amillər də nəzərə alınaraq ABŞ-da hər bir ştat üzrə illik statistik xəritə çap olunur. Çap edilmiş xəritədə mütəlif bölgələrin potensialı, inkişaf imkanları, vergitutma sahəsində mövcud olan rejmin əsasları, investisiya qoyuluşlarının iqtisadi baxımdan effektivliyi kimi məsələlər öz əksini tapır. Bir çox inkişaf etmiş ölkələrdə investisiya mühiti makroiqtisadi sferanın tərkib hissəsi kimi qiymətləndirilir.

Azərbaycanda investisiya mühiti getdikcə inkişaf etməkdədir. Buna səbəb olaraq ölkədə sistemli şəkildə həyata keçirilən islahatların, görülən tədbirlərin əhəmiyyətini vurğulaya bilərik. Bunun məntiqi nəticəsi olaraq xarici iqtisadi əlaqələrin qurulması və beynəlxalq müttəfiqlik siyasətinin uğurla aparılması, hüquqi bazanın təkmilləşdirilməsi kimi məsələləri qeyd etmək olar (Faydalı biznes və investisiya mühitinə dair vəsait. ATƏT. 2006).

İnvestisiya təkliflərində bir sıra göstəricilər əks olunmalıdır:

- Ayrılan vəsaitin hansı istiqamətdə investisiya edilməsi xarakteristikası;
- Həyata keçiriləcək layihədən sonda əldə olunacaq nəticələrinin ifadəsi;
- Layihənin icra edilməsi üçün tələb olunan investisiyanın həcmi;

- Çəkilən xərclərin qaytarılması şərtləri;

- Nəzərdə tutulan investisiya proyektinin yerinə yetirilməsi üçün lazım olan ehtiyatların toplam həcmi.

Xarici iqtisadi əlaqələrin təməlində investisiya əməkdaşlığı durur. İqtisadiyyatın inkişaf sürətini və strukturunu, innovativ proseslərin və istehsalın səmərəlilik göstəricisini investisiya qoyuluşlarının kəmiyyətini və keyfiyyətini xarakterizə edən cəhətlərlə təsbit etmək mümkündür. Keyns nəzəriyyəsində qeyd olunur ki, əgər milli qənaət investisiyaya nisbətdə daha çox artarsa bu iqtisadi cəhətdən tarazlığın pozulmasına və məşğulluq problemlərinin yaranmasına səbəb ola bilər. Qeyd olunan halda qənaət edilən həcmin müəyyən bir qismi xarici iqtisadiyyata yatırılır. Keyns nəzəriyyəsinə əsasən, tədiyyə balansının mövcud vəziyyəti kapitalın beynəlxalq hərəkətini şərtləndirən əsas amillərdən biridir. İxrac həcmi idxaldan çox olduğu vəziyyətdə kapital ixrac etmək şəraiti yaranır. Bu şərait aktiv tədiyyə balansı yaradır ki, bu da müsbət saldo adlanır. Az inkişaf etmiş ölkələrdə kapitalın azlığı problemi hökm sürür. İqtisadi artım sürətinin yüksədilməsi üçün mövcud kapital ehtiyatlarının artırılması böyük əhəmiyyət daşıyır. Az inkişaf etmiş ölkələrdə qeyd olunan artıma nail olmaq üçün birbaşa xarici investisiyaların cəlb edilməsin stimullaşdırılması prioritet məsələdir.

İnvestisiyaların maliyyələşmə mənbəyi kimi həm milli qənaəti həm də xarici mənbələri qeyd etmək olar. Xarici aktivlərin alınması üçün milli qənaətin hamısının, daxili investisiyaların həyata keçirilməsi üçün isə tamamilə xarici mənbələrin istifadəsi nəzəri baxımdan mümkündür. Bu nəticəyə gəlmək olar ki,qapalı iqtisadiyyatda investisiya ilə cəmi milli qənaət arasında qarşılıqlı korrelyasiya asılılığı var. Bu baxımdan, qapalı iqtisadiyyatda məcmu qənaətlə investisiya arasında birbaşa qarşılıqlı korrelyasiya asılılığı var.

Xarici investisiya qoyuluşlarında bir çox hallarda diversifikasiya edilməsi yolu ilə mövcud risklərdən qorunmaq imkanları yaranır. Bu üsul da investorlar tərəfindən bir çox hallarda tətbiq olunur. Çünki risklərin şaxələndirilməsi yolu ilə müxtəlif istiqamətlərdə qoyulan yatırımın müsbət nəticələri ilə bu yaranmış risk dərəcələrinin təsirinin əhəmiyyətli şəkildə azaldılmasına nail olmaq olar.

Dünya təcrübəsinə əsasən, misal çəkə bilərik ki, xarici investisiya axınını artırmaq üçün coğrafi şərait böyük əhəmiyyət daşıyır. Nümunə olaraq Sinqapura baxsaq, bu ölkənin coğrafi baxımdan imkanları regional bazara xidmət üçün uyğun olduğundan, buraya birbaşa xarici investisiya qoyuluşlarının həcmi əhəmiyyətli dərəcədədir. Bu təcrübənin ölkəmizə tətbiqini nəzərdən keçirsək, ölkəmizin Avropa və Asiyanın qovşağında yerləşməsini nəzərə alaraq, Şərqə və Qərbə çıxışın qovşağı hesab edilən Qarabağın azad edilməsi ilə ölkəmizin beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində bundan sonra daha da fəal iştirakını təmin edəcəyini deyə bilərik. Ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə, Qarabağda çox əhəmiyyətli logistika və ticarət qovşaqları yaradaraq, tranzit yüklərin ölkə ərazisindən keçməsinə nail olmaq olar.

Təsərrüfat modelləri ölkənin sosial-iqtisadi vəziyyəti, əvvəki illərdəki göstəriciləri nəzərə alınaraq formalaşır. Bazar iqtisadiyyatına nəzər salsaq, fərqli modellərin mövcudluğunu müşahidə edə bilərik. Bunlara  Amerika, İsveç, Alman, Yapon və s. modellərini nümunə göstərə bilərik.

Alman modeli – sosial yönümlü bazar iqtisadiyyatıdır. Bu modeldə sosial infrastrukturun köməyi ilə bazar iqtisadiyyatında hökm sürən çətinliklərin aradan qaldırılması nəzərdə tutulub. Dövlətin öhdəlik daşıdığı mühüm məsələlərdən olan bazar səmərəliliyi və sosial cəhətdən eynilik arasında tarazlığın yaradılması bu modelin xarakterik cəhətidir. Alman modelinin xarakterik cəhətlərinə iqtisadiyyatın sosial yönümlü olması, insanlar üçün layiqli yaşam standartlarının, müxtəlif xidmət sahələrin təmin olunması, müstəqil formalı rəqabətin stimullaşdırılması, məşğulluq məsələlərinin tənzimlənərək işsizlik problemlərinin ən aşağı səviyyədə olmasına nail olunması aiddir.

İsveç modeli – güclü sosial siyasət ilə digər modellərdən fərqlənir və milli gəlirin yenidən bölüşdürülməsi hesabına yoxsulların təmin olunmasına, gəlirlərin bərabərsizliyinin azaldılmasına istiqamətlənib. Dövlət xərclərinin yüksək olması səbəbilə buradakı biznes subyektlərinə yüksək vergi dərəcələri təyin edilir. Bu xərclərin əsas hissəsini  sosial yönümlü məsələlərdir təşkil edir. Ümumiləşdirsək, yüksək vergi norması, işsizlik problemlərinin effektiv həlli ilə məşğulluğun normal

səviyyədə olması, dövlət sektorunun üstünlük təşkil etməsi İsveç modelinin spesifik xüsusiyyətləridir (Əzizova G., 2012).

### 1.3 İnvestisiya fəaliyyətinin normativ-hüquqi əsasları

Hüquqi bazanın yaradılması investisiya yatırılması prosesində ən vacib məqamlardan biridir. İnvestorlar öz maliyyə resurlarını müəyyən bir sahəyə yönləndirdikləri üçün onların hüquqi təminatının olması hər zaman diqqət ayırdıqları məsələ olmaqdadır. Potensial investorlar fəaliyyət istiqamətlərini hüquqi sənədlərə əsaslanaraq təşkil edirlər. Qanunlar, qərarlar və normativ aktlar qeyd olunan sənədlərə aiddir. Qanunlar və hüquqi sənədlər müxtəlif sahələrdə mövcud olan münasibətləri təmin etməlidir.

İnvestisiya fəaliyyətinin tənzimlənməsinə dövlət investisiyalarının idarə olunma prosesi, investisiya fəaliyyəti ilə əlaqədar şərtlərə yatırım edən şəxslər tərəfindən əməl edilməsinə nəzarət aiddir. Bu fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi iqtisadi, sosial və s. sahələrdə siyasət aparılması ilə həyata keçirilir (İsayev S. 2011).

Bir çox dövlətə görə, iqtisadi və maliyyə şəraiti ölkəyə xarici yatırımların artırılmasında kifayət qədər vacib ünsürlərdəndir. Bu amillərlə yanaşı, diqqət yetirilməli olan siyasi və hüquqi mühit də ən az digərləri qədər əhəmiyyətlidir.
Sərmayəçilərə vergi və gömrük rüsumlarında güzəştlər təklif olunsa belə, onların investisiya yatırmağa tərəddüd etdiləri bəzi hallar ola bilər. Bunlara nümunə olaraq, ölkənin ekoloji problemlərini, təklif olunan güzəştlərin tətbiqinin dayandırılmasını, ölkədə sabitliyin olmamasını və s. səbəbləri göstərmək olar. İnvestorlar investisiya yatıracaqları ölkənin təklif etdiyi vədləri yerinə yetirəcəklərindən və təhlükəsizliyindən əmin olduqları zaman həmin ölkələrə yatırım etməkdə maraqlı olurlar (Faydalı biznes və investisiya mühitinə dair vəsait. ATƏT. 2006). Bu kimi amilləri nəzərə alaraq, investisiya mühitinin inkişaf etdirilməsində müvafiq qanunvericilik

bazasının möhkəmləndirilməsi vacib rol oynayır. Tənzimləmə mexanizmi xarici investisiya siyasətində əsas məqamlardandır.

Vergi dərəcələrinin, faizlərin dövlət tərəfindən şaxələndirilməsi ilə vergi rejminin tətbiqində təsir imkanlarını genişləndirir. Dövlət tərəfindən verilən subsidiya, dotasiya və qrantları praktiki cəhətdən yatırımların tənzimləyici vasitələri kimi misal göstərə bilərik. Təmərküzləşməyə qarşı aparılan siyasəti, natamam tikintinin və dövlət mülkiyyətinin özəlləşdirilməsini investisiya fəaliyyətinin hüquqi cəhətdən tənzimlənməsinin üsullarına aid edə bilərik. Ölkəmizin istehsal gücünün və potensialının davamlı inkişafı baxımından dövlət idarəetməsi xüsusi önəm kəsb edir. Ölkəmizə investisiya qoyuluşlarının artırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir:

- Özəlləşdirilmiş və büdcəyə borcu olan dövlət müəssisələrinin borclarının güzəştli formada ödənişinə şərait yaratmaq, yaxud da bu borcların tamamilə ləğv edilməsi. Bu, maliyyə vəziyyəti baxımından iqtisadi subyektlərin vəziyyətinin normallaşdırılması məqsədi daşıyır.
- Dövlətin sərəncamında olan obyektlərin investisiya münasibətləri çərçivəsində satılması və ya uzun müddət üçün icarəyə verilməsi;
- Neft hasilatı sənayesinə yatırım edən xarici sərmayəçilərə və kənd təsərrüfatı ilə məşğul olanlara vergi məsələlərində imtiyazların tətbiq olunması və s.

Ölkəmizdə aparılan islahatlar, görülən tədbirlər investisiya mühitinin hüquqi bazasının təkmilləşməsinə və təşəkkül tapmasına öz töhfəsini vermişdir. Həmçinin 1995-ci ildə qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" Qanunun xüsusi əhəmiyyətini vurğulamaq lazımdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası qısa zaman ərzində böyük nailiyyətlərin əldə edilməsinə imkan vermiş, uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmışdır. Nəticədə, geniş sahibkarlar təbəqəsi formalaşmış, ölkənin sosial-iqtisadi inkişafında özəl sektorun rolu daha da artmış və ümumdünya iqtisadi sisteminə inteqrasiya sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra dünya

miqyasında stabil iqtisadiyyata malik olmaq və müxtəlif sahələrdəki potensialından tam səmərəli istifadə edə bilmək üçün “açıq qapı” siyasətini reallaşdırdı. Burada əsas məqsəd xarici investorlar üçün cəlbedici mühitin yaradılması idi. Xarici və yerli sahibkarlar üçün bərabər fəaliyyət mühitinin yaradılması, onların hüquq və azadlıqlarının təminatı, mülkiyyətlərinin toxunulmazlığı, və s. istiqamətlərdəki görülən işlər qeyd olunan məqsədlərə nail olunması yolunda əhəmiyyətli addımlardandır (https://xalqqazeti.com/az/news/84044).

Ölkəmizin iqtisadiyyatına nəzər yetirsək, digər sahələrlə müqayisədə, burada neft sənayesinə yatırımların xüsusi çəkisinin olduğunun şahidi olarıq. Neft sektorunda lazımi infrastrukturun inkişafı bu sənayeyə investisiyan qoyulmasına imakan verən mühüm amillərdəndir. Ümumiyyətlə, investisiya yatırımı etmək istəyən xarici şirkətlər özlərinin qurğular, obyektlər və s. tikməyə maraqlı deyillər. Buna vaxt və xərc sərf etməkdənsə, həmin ölkələrdə əvvəlcədən mövcud olan qazma qurğularının təmirini daha üstün tuturlar. Ona görə də, qısa müddət ərzində ölkəmizdəki xarici şirkətlərlə müqavilələrin bağlanılmasına nail olundu. İstər zaman, istərsə də maliyyə nöqteyi nəzərindən yeni obyektlərin tikilməsi, xaricdən qazma qurğularının alınması, gətirilməsi və s. məqsədəuyğun deyildi. 70-80-ci illərə nəzər salsaq, Xəzər dənizdən neft və qazın hasil edilməsi üçün Azərbaycanda fəaliyyət göstərmək niyyətində olan xarici şirkətlər mövcud infrastruktur və təcrübəli mütəxəssislər baxımındam demək olar ki, heç problemlə üzləşmədilər.
İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi bir sıra fərqli metod və vasitələrin köməyi ilə həyata keçirilir və bu prosesin icrasında əsasən beynəlxalq təcrübələrə istinad edilir. Hansı və neçə metoddan istifadə olunması həmin ölkənin iqtisadi, coğrafi, mədəni və s. həyatı nəzərə alınmaqla, müxtəlif formalarda həyata keçirilir. Hansı və neçə metoddan istifadə olunması həmin ölkənin iqtisadi, coğrafi, mədəni və s. həyatı nəzərə alınmaqla, müxtəlif formalarda həyata keçirilir.

Dövlət mülkiyyətinin idarəetmə metodları çoxşaxəli olduğundan, onları idaəetmə obyeklərinin xüsusiyyətləri nəzərə alınaraq, iqtisadi, inzibati, qanunverici və normativ-huquqi, təşkilati, texniki-normativ metodlar kimi qruplaşdırmaq daha məqsədəuyğun olar (Əhmədov M.A, Hüseyn A.C., 2011).

İnvestisiya münasibətlərinin hüquqi tənzimlənməsi strukturunda iki səviyyəni ayırmaq olar:

1) beynəlxalq müqavilələrin  bağlanması yolu ilə yaranan beynəlxalq hüquqi səviyyə;

2) qəbul edən dövlətin milli qanunvericiliyinin təşkil etdiyi dövətdaxili səviyyə (Gözəlov Ə., 2008).

İnvestisiya fəaliyyətinin subyektləri, yəni investorlar isə investisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasənın Qanununa əsasən, Azərbaycan Respublikasının və xarici ölkələrin vətəndaşları və hüquqi şəxsləri malik olduğu və yaxud da borc olaraq əldə etdiyi vəsaiti sərmayə obyektlərinə yatırmaq barəsində qərar verən, habelə onlardan istifadə olunmasını təmin edən şəxslər, investisiya fəaliyyətinin iştirakçılarıdır. Sərmayəçilər investisiya fəaliyyətində müxtəlif rollarda çıxış edə bilərlər. Bunlar əmanətçi, kreditor, alıcı və s. kimi ola bilər. Həmçinin bu şəxslər investisiya fəaliyyətinin subyektlərinin müxtəlif funksiyalarını icra edə bilərlər.

Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı gündən neft gəlirlərindən səmərəli istifadə etməklə ölkədə iqtisadiyyatın şaxələndirilməsinə nail olmağı, ağırlıq mərkəzini tədricən neftdənkənar sahələrə yönəltməyi və beləliklə də, iqtisadi artımın qeyri-neft sektorunun hesabına baş verməsini qarşıya mühüm vəzifə kimi qoyaraq, bu strateji hədəfə çatmaq üçün mühüm qərarlar qəbul edib.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Strateji Yol Xəritəsi”nə əsasən, investisiya cəlb etmək üçün ölkəmizdə biznes mühitinin yaxşılaşdırılmasının təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir.  2025-ciilədək qarşıya qoyulmuş əsas hədəflərdən biri elə bir biznes mühitinin yaradılmasıdır ki, bu mühit xarici sərmayəçilərin dünya standartları çərçivəsində rahat fəaliyyəti üçün hər bir imkanı özündə cəmləşdirsin. Bu sahədə aparılacaq islahatlar iqtisadiyyatda özəl investisiyaların artmasına zəmin yaradacaqdır (https://president.az/articles/26765).

## II FƏSİL. MÖVCUD İNVESTİSİYA POTENSİALININ TƏHLİLİ VƏ BU POTENSİALDAN EFFEKTİV İSTİFADƏ ÜÇÜN GÖRÜLMƏSİ ZƏRURİ OLAN İŞLƏR

### 2.1. İşğaldan azad olunmuş rayonlarda investisiya siyasətinin əsas istiqamətləri

Tarixi torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin uğurlu, uzaqgörən siyasəti və igid, müzəffər ordumuz sayəsində azad etdikdən sonra, Azərbaycan hökuməti indi Ermənistanın işğal etdiyi və taladığı hər bir qarış torpağımızın bərpası üçün öz investisiya planlarını irəli sürür. Doğma və tarixi torpaqlarımız olan Qarabağ bölgəsinin bərpasının Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Prezidentimiz İlham Əliyev 1990-cı illərin əvvəllərindən başlayaraq otuz ilə yaxın davam edən erməni işğalından xeyli əziyyət çəkən rayonlarımızın dirçəldilməsi üçün lazımi tədbirlərin görüləcəyini qeyd edib. (https://caspiannews.com/news-detail/foreign-countries-express-interest-in-rebuilding-liberated-karabakh-region-of-azerbaijan-2021-1-22-0/).

Azərbaycan hökuməti xüsusilə qeyri-neft sənaye sahələrinə yatırdığı çoxmilyonluq sərmayələrlə Qarabağ bölgəsində işğaldan azad edilmiş ərazilərin inkişaf etdirilməsi və ölkə iqtisadiyyatına inteqrasiyası üçün səylərini əsirgəmir. Aparılan yenidənqurma və bərpa işləri sayəsində Ağdam regionun sənaye mərkəzinə çevriləcəkdir. Ağdam Sənaye Parkı rayonun və bütün regionun sənaye dirçəlişinin əsası olacaqdır.

1993-cü ildən başlayaraq 27 illik işğal zamanı ən çox erməni vandalizminə məruz qalmış rayon Ağdam olmuşdur. Ermənilərin törətdiyi dağıntıların miqyasına görə Ağdam "kabus şəhəri" və "Qafqazın Xirosiması" adlandırılıb. Beynəlxalq analitiklər Ağdamı planetin ən böyük ev anbarı kimi qələmə verdilər, belə ki, ermənilər rayonun mülklərini tikinti materialları kimi istifadə etmək üçün qarət ediblər.

Ağdamda yeni iş yerlərinin yaradılacağı, bu prosesə sahibkarların da cəlb olunacağı qeyd edilir. Yeni sənaye parkına 110 milyon manat (64,7 milyon ABŞ

dolları) investisiya qoyuluşu planlaşdırılır (https://modern.az/iqtisadiyyat/331831/adama-110-milyonluq-sermaye-qoyulacaq/).

Ağdama yerli sərmayə ilə yanaşı, xarici investisiyaların da cəlb olunması nəzərdə tutulur. Bu baxımdan həm kənd təsərrüfatı məhsulları, həm də sənaye məhsulları istehsalı nəzərdə tutulur ki, onların bir hissəsi daxili bazara, bir qismi isə xaricə ixrac olunacaq. Ağdamda istehsal olunan məhsulların həmin hissəsi Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə xarici bazarlara çıxaraq Azərbaycanın qeyri-neft səna yesinə dəyər qazandıracaq.

Ağdam Sənaye Parkı Ağdamı bütün Qarabağ bölgəsinin müasir və inkişaf etmiş sənaye mərkəzinə çevirməlidir. Prezident İlham Əliyev parkın təməlini 2021-ci ilin may ayında qoyub. Sənaye parkının tikintisi hökumətin Ağdamı Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur rayonlarında dörd əsas regional mərkəzdən birinə çevirmək strategiyasına uyğun gəlir. Ağdam sənaye mərkəzi kimi yerləşsə də, Kəlbəcər mədən və turizm mərkəzinə çevriləcək. Eyni zamanda, hökumət Şuşanı mədəniyyət və turizm mərkəzinə, Cəbrayıl və Zəngilanı isə logistika və ticarət mərkəzinə çevirməyi planlaşdırır.

Hazırda Ağdam hökumət tərəfindən aparılan müharibədən sonrakı bərpa və yenidənqurma kampaniyası çərçivəsində yenidən dirçəldilir. 2021-ci ilin may ayında Prezident İlham Əliyev Ağdamda yeni avtomobil yolunun və ilk "ağıllı" yaşayış binasının tikintisinin təməlini qoyub. Rayonda ümumilikdə 1750 ev və 23 min mənzilin tikiləcəyi bildirilir (https://fed.az/az/qarabag/agdamda-ehalinin-70-i-coxmertebeli-binalarda-yasayacaq-107587).

Füzuli rayonunda beynəlxalq hava limanı, Füzulidən Şuşa şəhərinə gedən 100 kilometrlik avtomobil yolu, işğaldan azad edilmiş torpaqlarda indiyədək iki mehmanxana, çoxsaylı elektrik stansiyaları tikilib. Hazırda daha yeddi magistral yol, "ağıllı şəhər" və "ağıllı kənd", iki sənaye parkı, yaşıl enerji zonaları, yaşayış binaları və bir çox başqa obyektlər tikilir. Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun tikintisinə başlanılıb. Alternativ enerji mənbələrindən effektiv istifadə kontekstində ekoloji tarazlığın təmin edilməsi istiqamətində bir sıra əhəmiyyətli tədbirlərin ilkin mərhələsinə başlanmışdır. Belə ki, Laçın-Kəlbəcər rayonlarında külək elektrik

stansiyalarının, Zəngilan-Cəbrayıl rayonlarında isə günəş enerjisindən istifadə üçün lazımi avadanlıqların quraşdırılması planlaşdırılmışdır. Qarabağın Yaşıl Enerji zonası kimi bərpa olunması və ən müasir standartlara cavab verən yaşayış məskəninə çevrilməsi ən başlıca məqsədlərdən biridir. İşsizlik səviyyəsinin minimuma endirilməsi və əhalinin məşğulluq səviyyəsinin yaxşılaşdırılması məsələlərini də əhatə edən planlara Qarabağda həm ənənəvi məşğuliyyət sahələrinin, həm də müasir, yeni məşğulluq növlərinin yaradılması daxildir (https://marja.az/67704/horadiz-agbend-demir-yolu-xettinin-temeli-qoyulub-elektrik-stansiyasi-ise-salinib).

Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il Fərmanı ilə işğaldan azad etdiyimiz bölgələrimizdə əhalinin yerləşməsi, təhlükəsiz şəkildə yaşayışın təminatı, quruculuq-bərpa tədbirlərinin, yerinə yetirilməsi, səmərəli fəaliyyətin təmin edilməsi, ölkəmizin iqtisadi-sosial inkişafının dayanıqlılığının təmin edilməsi üçün "Qarabağ Dirçəliş Fondu" yaradıldı (https://president.az/az/articles/view/49876).

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və İtaliyanın Ansaldo Energia adlı müəssisəsi arasında imzalanan müqaviləyə əsasən Füzuli rayonunda inşa olunacaq 110 kilovoltluq yarımstansiyanın xüsusi avadanlıqlarla təchizatını yuxarıda adı qeyd qeyd olunmuş italyan şirkəti təmin edəcəkdir. Bundan başqa, Türkiyədə fəaliyyət göstərən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında "Mədəni və Elmi Əməkdaşlıq" memorandumu imzalanıb. Bu memorandum Qarabağda Yüksək Texnologiyalar Parkının inşasını nəzərdə tutur. Sözügedən parkda elmi araşdırmaların edilməsi, həmçinin, ən müasir və qabaqcıl texnologiyaların istehsal edilməsi planlaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına dair keçirilən müşavirədə azad edilmiş rayonlarımızda idarəetmə orqanlarının bərpası, enerji kommunikasiya, enerji, nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı zəruri tədbirlərin görülməsinə başlandığını qeyd etmişdir. Görülən bütün tədbirlərin, məskunlaşma və inkişaf fəaliyyətlərinin sürətli icrasına imkan verəcəyi qeyd olunmuşdur. Dövlət başçımız, kənd təsərrüfatının müxtəlif sahələrinin çox böyük potensialının olduğunu qeyd edərək Kənd Təsərrüfatı Nazirliyinə və

İqtisadiyyat Nazirliyinə müəyyən tapşırıqlar vermiş və öncədən prioritetlərin müəyyənləşdirilməsi ilə bağlı göstərişlər vermişdir.

Əhəmiyyətli ərazilərin minalanması kənd təsərrüfatının inkişafı üçün əsas mane yarada biləcək məqamlardan hesab olunur. Minatəmizləmənin tam yekunlaşmasının yaxın bir neçə il çəkəcəyi proqnoz edilir. İlk olaraq, regionun investisiya baxımından cəlbediciliyini artırmaqla daxili və xarici sərmayelərin stimullaşdırılması məsələsi gündəmdədir. Hökumət də öz növbəsində regionun inkişafı üçün əhəmiyyətli məbləğdə vəsait xərcləməyə hazırdır. Yaxın 10 il ərzində Qarabağın bərpası üçün təxminən altmış milyard dollar vəsaitin xərclənilməsi planlaşdırılır (https://www.vedomosti.ru/politics/articles/2021/02/19/858725-azerbaidzhan-razrabativaet).

Lakin kənd təsərrüfatı ilə yanaşı, regionda turizm və mədən sənayesi də inkişaf etdirilməlidir. Sovet dövründə Zod qızıl yatağının istifadəsi ilə bağlı Ermənistan SSR ilə Azərbaycan SSR arasında müqavilələr olub. İndi Azərbaycan bu yataqdan Ermənistan ilə danışıqlar aparmadan qızıl mədənini təkbaşına idarə etmək niyyətindədir (https://www.vedomosti.ru/politics/articles/2021/02/19/858725-azerbaidzhan-razrabativaet).

“Armed Conflicts and Food Security” məqaləsində qeyd olunmuş nəticəyə görə işğal dövründə kənd infrastrukturunun dağıdılması, meşələrin qırılması, torpaqların minalanması ərzaq təhlükəsizliyi baxımından uzunmüddətli problemlərə gətirib çıxara bilər. Qeyd edilən problemlərin həlli istiqamətində dağıdılmış infrastrukturun, yolların, suvarma sistemlərinin və s. bərpası əsas diqqət yetirilməli olan məqamlar kimi qeyd edilib. Azad olunmuş ərazilərdə məskunlaşmış fermerlər üçün məsləhət-informasiya xidmətinin təşkil edilməsi bu sahənin inkişafı və bərpası istiqamətində effektiv ola biləcək vacib faktorlardandır. Bu, tədarük zəncirlərinin təşkili və logistika infrastrukturunun dayanıqlı fəaliyyətinin təmin edilməsi üçün əsas şərtlərdəndir. Ölkəmizin tranzit mövqeyi və əlverişli nəqliyyat qovşağında yerləşməsi beynəlxalq ticarət baxımından ölkəmiz üçün çox vacib rol oynayır (https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/).

Ölkəmizin su ehtiyatının 40 faizə qədəri işğaldan azad etdiyimiz torpaqların payına düşür. Artıq bu ehtiyatların ölkəmizin sərəncamında olması həm içməli su təchizatının təmid edilməsi, həm də qablaşdırılaraq ölkədaxili və xaricə satılması kimi imkanları təmin edir. Bundan başqa, Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, İstisu, Şuşada Turşsu və Şırlan mineral suları və bulaqları bu ərazilərdə kurort-rekreasiya imkanları baxımından turizm sahəsində çox əhəmiyyətli imkanlar yaradır.

Ulu Öndər Heydər Əliyev irsinin layiqli davamçısı, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində İranla Araz çayı üzərində "Qız qalası" bəndləri, həmçinin bir neçə elektrik stansiyalarının tikintisi, istifadəsi barədə əldə edilən razılaşma böyük əhəmiyyət daşıyır. Xudafərin hidroqovşağı ölkəmiz üçün il ərzində 368 milyon kilovat/saat elektrik enerjisi istehsal edilməsinə şərait yaradacaqdır. Bu ərazilərdə həmçinin suvarma sisteminin bərpa edilməsi və inkişafı ilə əlaqədar əhəmiyyətli potensial vardır.

Azad etdiyimiz rayonların yenidən qurulması həm dövlət investisiyaları hesabına, həm də özəl vəsaitlərin cəlb edilməsi ilə həyata keçiriləcək, investorlar üçün cəlbedici şərait yaradılacaq. Azərbaycan hökuməti işğaldan azad olunan regionun bərpasına dövlət investisiyaları formasında təxminən 1,5 milyard dollar xərcləməyi planlaşdırır.

Əhəmiyyətli həcmdə karbohidrogen ehtiyatları olan Azərbaycanın neft-qaz sektoru həmişə xarici investisiyalar üçün maraq dairəsində olub. İllər üzrə müxtəlif səbəblərdən ölkəmizə qoyulan investisiya məbləğləri arasında artıb-azalmalar müşayiət olunub. 2010-2020-ci illər ərzində ölkə iqtisadiyyatına qoyulmuş ümumi, xarici və daxili investisiya qoyuluşları statistikasının inkişaf dinamikasına qrafik təsvirlərlə nəzər yetirək:

**Qrafik 1. 2010-2020-ci illər ərzində ölkə iqtisadiyyatına yatırılmış həm daxili həm də xarici investisiya məbləğləri**




**Mənbə:** https://www.stat.gov.az/source/finance/ məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bundan basqa, Naxçıvan nəqliyyat dəhlizinin yenidən qurulması, Azərbaycandan Türkiyəyə Ermənistan və Naxçıvan ərazisindən keçən dəmir yolunun bərpası regionun iqtisadiyyatına da təsir edəcək. Naxçıvanla əlaqənin bərpası bütün region dövlətləri, o cümlədən Ermənistan üçün faydalıdır.

Türkiyə silah satışından əlavə, Dağlıq Qarabağdakı investisiya layihələrindən əldə edəcəyi iqtisadi faydalara da ümid bəsləyir. 31 may 2021-ci ildə Bakıda keçirilən investisiya forumunda Türkiyənin ticarət naziri Mehmet Muş bildirib ki, türk podratçılar Dağlıq Qarabağın inkişafında fəal iştirak etməyə hazırdırlar. Türkiyə Xarici İqtisadi Əlaqələr Şurasının məlumatına görə, 2020-ci ildə Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi təxminən 4,5 milyard dollar təşkil edib. Dağlıq Qarabağa investisiyalar bu rəqəmi əvvəllər təyin olunmuş 15 milyard dollar və daha çox hədəfə çatdıra bilər. Azərbaycanın münaqişədən sonra əldə etdiyi ərazilər həm də ilk dəfə olaraq Bakı ilə İstanbulu quru yolu ilə birləşdirməyə imkan verəcək. Türkiyə hakimiyyəti Azərbaycana dəmir yolu çəkmək niyyətini bəyan edib (https://www.rfi.fr/ru/кавказ/20210610-эрдоган-отправится-в-нагорный-карабах-после-участия-в-саммите-нато).

## 2.2. İnvestisiya potensialının müqayisəli təhlili və əlverişli mühitin yaradılması məsələləri

İlk dəfə olaraq ölkələrin investisiya cəlbediciliyinin müqayisəli qiymətləndirilməsi illər əvvəl ortaya çıxmışdı. Bu sahədə ilk iş 1969-cu ildə Harvard Biznes Məktəbinin alimləri tərəfindən aparılmışdır. Ölkələrarası müqayisə xarici və milli sərmayədarlar üçün qanunvericilik şərtləri, milli valyutanın sabitliyi, milli valyutanın sabitliyi, milli valyutanın məzənnəsinin sabitliyi kimi xüsusiyyətlər daxil olmaqla ekspert miqyasına əsaslanmış, kapitalın ixracı imkanları, eləcə də milli kapitaldan istifadə, siyasi vəziyyətin sabitliyi, inflyasiyanın səviyyəsi kimi məsələlərin vacibliyi vurğulanmışdır.

Eyni zamanda, sadalanan göstəricilərin tərkibi investorlar tərəfindən nəzərə alınan bütün şərtləri nəzərə almaq üçün kifayət qədər təfərrüatlı deyildi. Buna görə də, əlavə olaraq ekspert qiymətləndirməsinə müraciət oluna bilər ki, bu da öz növbəsində, bütün amillərin nəzərə alınması ilə yekun nəticələri daha da etibarlı edə bilərdi.

İnvestisiya cəlbediciliyinin qiymətləndirilməsi metodologiyasının sonrakı inkişafı ekspert tərəfindən qiymətləndirilmiş parametrlər toplusunun mürəkkəbləşməsi və artması və statistik göstəricilərin əlavə edilməsi ilə əlaqələndirildi. Qiymətləndirmədə bir qayda olaraq, aşağıdakı göstəricilərdən istifadə edilir: makroiqtisadi (ÜDM, milli gəlir və s.), təbii ehtiyatların mövcudluğu, infrastrukturun inkişaf dərəcəsi, dövlətin iqtisadiyyatda iştirak səviyyəsi və s. (Сухинова С.Е. 2004: с.21).

80-ci illərin sonu və 90-cı illərin əvvəllərində bir sıra ölkələrin bazar iqtisadiyyatına keçidi onlara investisiya qoyuluşunun konkret şərtlərini müəyyən etdi, nəticədə yeni metodoloji yanaşmaların işlənib hazırlanması zərurəti yarandı. Yaranan ehtiyaca cavab olaraq, Multinational Business, PlanEcon və s. kimi məşhur konsaltinq şirkətlərinin keçid iqtisadiyyatı olan bəzi ölkələr üçün investisiya cəlbediciliyinin qiymətləndirilməsi üçün istifadə edilən sadələşdirilmiş üsulları hazırladıqlarını görə bilərik. Onlar müxtəlif amilləri nəzərə alıblar: ölkənin dünya iqtisadi mərkəzlərinə münasibətdə coğrafi mövqeyi, iqtisadiyyatda institusional

dəyişikliklərin həcmi, demokratik vəziyyət, aparılan islahatların vəziyyəti və nəticələri, əmək ehtiyatlarından istifadənin səmərəliliyi. Bununla belə, investisiya cəlbediciliyinin qiymətləndirilməsi təkcə ölkə səviyyəsində deyil, həm də böyük federal ştatlarda ayrı-ayrı qurumların investisiya cəlbediciliyinin təmin edilməsi üsullarını qiymətləndirmək məqsədəuyğundur (Шевелева О.Б. 2012: с.45).

Son illər ölkəmizdə regionların investisiya cəlbediciliyinin müxtəlif üsullarla qiymətləndirilməsi sahəsində işlər intensivləşib. Lakin bu gün investisiya potensialı əksər müəlliflər tərəfindən regionun investisiya mühitinin (investisiya cəlbediciliyinin) tərkib hissələrindən biri kimi qəbul edilir və buna görə də, bir qayda olaraq, bu cür tədqiqatların mərhələlərindən birinin tərkib hissəsi kimi qiymətləndirilir. Beləliklə, investisiya mühitinin qiymətləndirilməsində tətbiq olunan metodoloji yanaşmalardan regional investisiya potensialının qiymətləndirilməsində də istifadə oluna bilər.

Metodların müqayisəli təhlili həm tədqiqat sisteminin metodoloji əsaslandırılması, həm də investisiya vəziyyətinin qiymətləndirilməsi metodu baxımından onların müxtəlifliyini göstərir. Bəzi alim və mütəxəssislər faktorların qiymətləndirilməsi üçün əsasən ekspert metodlarına üstünlük verir, bəziləri isə bu məqsədlə statistik, kəmiyyət məlumatlarından istifadə edirlər. Bununla belə, investisiya potensialını xarakterizə edən bir sıra amilləri kəmiyyətlə müəyyən etmək mümkün olmadığını nəzərə alsaq, bəzi hallarda qarışıq variantlardan istifadə edilir (Шевелева О.Б. 2012: с.46).

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin eksperti Coşqun Cəfərovun sözlərinə görə mərkəz, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının inkişaf potensialı ilə əlaqədar qiymətləndirmə aparmış, və bu qiymətləndirmənin aparılmasında rayonlarımızın işğaldan öncəki iqtisadi statistik göstəriciləri əsas götürülmüşdür. Əsas istiqamətləri dağ-mədən, turizm, kənd təsərrüfatı əhate edib. Regionun kənd təsərrüfatı sahəsində çox əhəmiyyətli inkişaf perspektivləri olduğu vurğulanmışdır. Həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkə iqtisadiyyatının 10%-ni təşkil edə bilmə potensialları da bu qiymətləndirmədə vurğulanmışdır. Ekspertin sözlərinə görə, rayonların iqtisadi potensiallarından

effektiv istifadəsini təmin etmək üçün əsas tədbirlərdən biri də nəqliyyat infrastrukturunun, avtomobil və dəmir yollarının yenidən bərpasıdır. Qeyd etmək lazımdır ki, Qarabağ və Şərqi Zəngəzur rayonları Prezident İlham Əliyevin 7 iyul Fərmanı ilə yaradılmışdır.

İnvestisiya mühitinin qiymətləndirilməsi zamanı əsasən Expert-RA agentliyinin istifadə etdiyi metodologiyaya müraciət edilir. Metodologiyada investisiya mühitini investisiya potensialının və investisiya riskinin bir neçə elementlərin nəticəsi kimi hesab edilir. Bunlara əmək, istehlak, istehsal, maliyyə, institusional, innovativ, infrastruktur və təbii resurs potensialları daxildir.

**Şəkil 2: "Ekspert-RA" nın metodologiyasına əsasən Azərbaycan Respublikasının regionlarının investisiya mühitinin qiymətləndirilməsi**




**Mənbə:** bu şəkil "Шевелева О.Б. и Начева М.К. (2012) – Сравнительный анализ методик оценки инвестиционного потенциала региона. Экономика и бизнес. ИННОВАЦИИ №2 (160), 2012. С. 46" materialı əsasında müəllif tərəfindən hazırlanmışdır.

Risk və potensialın hər bir komponentinin çəkilərinin ekspert qiymətləndirmələri müəyyən edilir, inteqral göstəricilər hesablanır. Expert-RA agentliyi tərəfindən istifadə edilən regionların investisiya cəlbediciliyinin qiymətləndirilməsi sxemi Şəkil 2-də göstərilmişdir.

Bir çox beynəlxalq agentliklərin reytinqləri də əsasən ekspert qiymətləndirmələrinə əsaslanır. Bir qayda olaraq, bu cür reytinqlərdə maliyyə-büdcə sisteminin və regionların ödəmə qabiliyyətinin səviyyəsinin qiymətləndirilməsinə xüsusi diqqət yetirilir. Reytinq meyarlarına misal olaraq Fitch Ratings metodologiyasını göstərmək olar. Qiymətləndirmə 4 əsas istiqamət üzrə aparılır: borc və digər uzunmüddətli öhdəliklər; maliyyə; idarəetmə və administrativlik; iqtisadiyyat. Fitch Ratings ekspert tərəfindən müəyyən edilən hər bir göstəricinin xüsusi çəkisi nəzərə alınmaqla maliyyə göstəricilərinin müqayisəli təhlili və daha subyektiv meyarlar əsasında müəyyən edilir. Bundan əlavə, Fitch Ratings regional borc öhdəliklərinə milli və xarici valyutada reytinqlər verir (https://www.fitchratings.com).

İnvestisiya potensialının qiymətləndirilməsi üçün əsasən ekspert metodunun başqa bir nümunəsi Almaniyanın BERI informasiya xidmətinin metodologiyasıdır. Qiymətləndirmə beş ballıq sistem üzrə aparılır: 1 bal - əlverişsiz; 2 xal - əlverişsiz; 3 bal - qənaətbəxş; 4 xal - əlverişli; 5 xal - çox əlverişlidir. Nəzərə alsaq ki, investisiya potensialını müəyyən edən amillər həm kəmiyyət, həm də keyfiyyət xüsusiyyətlərini ehtiva edir, qiymətləndirməni aparan ekspert bunu müvafiq hesablama və ya arqumentlə əsaslandırmalıdır. Mütəxəssislərin qiymətləndirmə məlumatlarına əsasən, agentlik hər bir amil üzrə orta xal alır və BERİ indeksini hesablayır. Məhsulların faktorlar üzərindəki cəmi BERI indeksini təşkil edir (Шевелева О.Б. 2011: c.3).

Əsas ekspert metodlarına 1996-cı ildə Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu (IE RAS) tərəfindən hazırlanmış Rusiya regionlarının investisiya mühitinin qiymətləndirilməsi metodologiyası da daxildir. Bu metodologiya çərçivəsində regional investisiya potensialının bir çox özəl faktorundan istifadə edilərək ölkəmizdə, xüsusən də işğaldan azad edilmiş ərazilərə investisiya mühitinin qiymətləndirilməsində tətbiqi əlverişli sayıla bilər.

İnvestisiya potensialının bütün amilləri bu metodologiyada 7 qrupa bölünür:

1. Regionun resurs imkanları;
2. Rayonun istehsal potensialı;

3. Regionda infrastrukturun inkişaf dərəcəsi;

4. Regionda ictimai-siyasi vəziyyət;

5. Bölgənin sosial-mədəni potensialı;

6. Regionun təşkilati-hüquqi potensialı;

7. Rayonun maliyyə imkanları.

Qruplaşdırıldıqdan sonra hər bir amilə çəki əmsalı təyin edilir. Bu metodologiya çərçivəsində aşağıdakı dərəcə istifadə olunur: 3 qiyməti regionun investisiya mühitinə çox güclü təsir göstərən amillərə verilir, 2 qiyməti orta təsir, 1 qiyməti isə zəif, lakin nəzərə çarpan təsir.

Metodologiya müxtəlif növ investisiya mühitinə malik 8 region qrupunu ayırmağa imkan verir:

1-ci qrup - bütün növ investorlar üçün ən əlverişli investisiya mühiti;

2-ci qrup - iri investorlar üçün əlverişli investisiya mühiti (əsasən xammal sənayesində);

qrup 3 - potensial əlverişli investisiya mühiti;

qrup 4 – orta investisiya mühiti;

qrup 5 - daha az əlverişli investisiya mühiti (regionlar açıq şəkildə kənd təsərrüfatı istiqamətinə malikdir);

qrup 6 - əlverişsiz investisiya mühiti (depressiyada olan regionlar);

7-ci qrup – əlverişsiz investisiya mühiti (regionların sosial-iqtisadi inkişafının aşağı səviyyəsi);

8-ci qrup – qeyri-müəyyən investisiya mühiti (investisiya şərtləri əsasən xarici iqtisadi amillərlə müəyyən edilir).

Digər geniş istifadə olunan üsul statistik qiymətləndirmədir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, statistik göstəricilərin ədədi qiymətləri miqyasda ballara endirilir. Onun əlverişli olmayan cəhəti ondan ibarətdir ki, o, məlumatların "parçalanması" üçün tətbiq olunan intervalların məhdud sayı və ya əvvəlcədən müəyyən edilmiş bal diapazonu səbəbindən regionlar üzrə statistik göstəricilərin diferensiallaşma dərəcəsini adekvat şəkildə əks etdirə bilmir.

Metodologiya bir sıra özəl amillər əsasında işğaldan azad olunan regionun investisiya cəlbediciliyinin inteqral səviyyəsinin müəyyən edilməsinə əsaslanır. İnvestisiya cəlbediciliyi bir neçə xüsusiyyətdən istifadə etməklə qiymətləndirilir:

1. təbii-coğrafi potensial (əsas təbii ehtiyatların ehtiyatlarının qiymətləndirilməsi, işğaldan azad olunan regionun xarici ticarət obyektlərinə münasibətdə regionun coğrafi mövqeyinin göstəricisi);

2. istehsal və maliyyə potensialı (məsələn, sənaye istehsalının həcmi və onun dəyişmə sürəti, tədqiq olunan regionda kiçik sahibkarlığın inkişaf dərəcəsi, regiondan xaricə məhsulların ixracı);

3. sosial potensial (rayon sakinlərinin mənzil, avtomobil, telefonla təmin edilməsi, adambaşına düşən pullu xidmətlərin dəyəri və s.);

4. Regionda hökm sürən işsizliyin və cinayətkarlığın səviyyəsini, regionda siyasi sabitliyin səviyyəsini, habelə əmək münasibətlərində münaqişənin dərəcəsini qiymətləndirməyə imkan verən regional investisiya riski.

İnvestisiya cəlbediciliyinin bu və ya digər xüsusi amilini regionun rəqabət üstünlüklərinin və ya geriləmələrinin sayına aid etmək meyarı onun regional kəmiyyət qiymətləndirməsidir. Təbii ki, statistik ölçüyə uyğun olmayan bəzi xüsusiyyətlər üçün (məsələn, Azərbaycan Respublikasının xarici ticarət məhsulları ilə bağlı regionun coğrafi mövqeyini qiymətləndirmək üçün) ekspert qiymətləndirməsindən istifadə edilməsi zəruridir. Bununla belə, bu cür əlamətlər azdır və onlar əsas deyil. Əsas rolu, daha çox obyektivliyi nəzərə alınmaqla, regionların investisiya əhəmiyyətli göstəricilərinin faktiki (əsasən dövlət statistikası) və kəmiyyət xüsusiyyətləri oynamalıdır.

Yuxarıda müzakirə edilən təsnifata əlavə olaraq, metodoloji yanaşma baxımından regionun investisiya cəlbediciliyinin təsnifatı kifayət qədər tez-tez istifadə olunur. Üç ən xarakterik yanaşma var: dar, faktorial və riskli. İqtisadi sistemin, o cümlədən regional sistemin investisiya cəlbediciliyini qiymətləndirmək üçün əsas göstərici kimi dar yanaşma tərəfdarları istifadə olunan aktivlərin rentabellik səviyyəsini iki varianta görə hesablamağı təklif edirlər:

a) mallardan, işlərdən, xidmətlərdən gələn gəlirin cəmi aktivlərin dəyərinə nisbəti;

b) balans hesabatında əks olunan mənfəətin istifadə edilmiş ümumi aktivlərə nisbəti.

Bu yanaşma təhlil və hesablamaların müqayisəli sadəliyi ilə diqqəti cəlb edir. Bu yanaşmanın universallığına görə ondan müxtəlif səviyyələrdə iqtisadi sistemlərin investisiya cəlbediciliyini qiymətləndirmək üçün istifadə etmək mümkündür. Bundan əlavə, sahibkarlıq fəaliyyətinin əsas məqsədi obyektə qoyulan vəsaitdən mənfəət əldə etmək və müəyyən müddətdən sonra geri qaytarmaqdan ibarətdir.

Dar yanaşmaya əsasən, tədqiqatçı N.A. Kolesnikovaya görə, investisiya cəlbediciliyinin ərazi idarəetmə sisteminin prizmasından nəzərdən keçirildiyi, regional və yerli hakimiyyət orqanlarının funksiyaları, imkanları, inzibati resursları və məsuliyyəti nəzərə alınmaqla investisiya fəaliyyətinin subyektlərinin və obyektlərinin fəaliyyəti üçün şəraitin yaradılması olduğu qeyd edilir. Bu texnikanın müəllifinin fikrincə, əlverişli ab-havaya nail olmaq həm nümayəndəli hakimiyyətlə əməkdaşlıq şəraitində mövcud olan icra hakimiyyəti sistemi, həm də dövlət institutlarının səlahiyyətləri və onların nəzarəti altında təmin edilir (Колесникова Н.А. 2000: с.153).

Qiymətləndirməyə dar yanaşmanın çatışmazlığı ondan ibarətdir ki, o, maraqlar balansını əks etdirmir və investisiya mühiti innovativ inkişaf növü və iqtisadi dayanıqlılıqla əlaqəli deyil. Bu üsulda regionların inkişafında investisiya amili ilə digər resurs faktorları arasındakı obyektiv əlaqələrə çox əhəmiyyət verilmir (Сухинова С.Е., 2004: s.23).

Faktorial yanaşmanın mahiyyəti mənaca oxşar olan, amillər adlanan göstəricilərin daxil olduğu genişləndirilmiş qrupların tərtibindən ibarətdir. Amil yanaşmasında investisiya cəlbediciliyinin ümumi göstəricisi amillər üzrə orta çəkili qiymətləndirmələrin cəmidir. Təbii ki, icmal göstərici müəyyən bir bölgənin cəlbediciliyi haqqında birmənalı cavab verə bilməz, buna görə də adətən investisiya cəlbediciliyinə təsir edən amillərin inkişafının vəziyyəti və dinamikası haqqında

məlumatla tamamlanır. Bundan əlavə, qərar qəbul edərkən hər bir investor fərdi amillər toplusuna diqqət yetirə bilər.

Faktorların təsirinin qiymətləndirilməsinə misal olaraq İngiltərənin "The Wall Street Journal Avropa" jurnalının təklif etdiyi metodologiyanı göstərmək olar. O, 10 iqtisadi və siyasi göstəricini araşdırır: iqtisadi artım, qiymət sabitliyi, siyasi sabitlik, valyuta sabitliyi, özəlləşdirmə, infrastruktur, məhsuldarlıq, qanunvericilik bazası, ticarət perspektivləri və təbii ehtiyatlar. Reytinq texnikasının üstünlüyü sadəlik, müqayisəli ucuzluq, əldə edilən nəticələrin görünməsidir (Сухинова С.Е. 2004: s.25).

Beləliklə, hazırda həm aparılan qiymətləndirmənin üsullarına, həm də metodoloji yanaşmaya görə fərqlənən çoxlu sayda üsullar mövcuddur. Bütün üsullar investisiya obyekti kimi ölkələrin (regionların) potensialına təsir edən müxtəlif amillər qrupunun nəzərə alınmasını nəzərdə tutur. Amillərin sayı, onların tərkibi, qiymətləndirmə üsulları (kəmiyyət, keyfiyyət), ölçmə üsulları (ekspert, statistik), çəkilər əhəmiyyətli dərəcədə dəyişir və müəyyən bir metodologiyanın mövqeyini, onun müəlliflərini və tətbiqi xüsusiyyətlərini əks etdirir.

**Şəkil 3: Regionun investisiya potensialının qiymətləndirilməsi üsullarının təsnifatı**




**Mənbə:** bu şəkil "Шевелева О.Б. и Начева М.К. (2012) – Сравнительный анализ методик оценки инвестиционного потенциала региона. Экономика и бизнес. ИННОВАЦИИ №2 (160), 2012: с. 50" materialı əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müqayisəli təhlilin nəticələrinə görə, nəzərdən keçirilən metodlara xas olan bir sıra ümumi çatışmazlıqlar müəyyən edilə bilər:

- regionun “investisiya mühiti”, “investisiya potensialı”, “investisiya cəlbediciliyi” anlayışlarının şərhində uyğunsuzluq;

- investisiya mühiti, investisiya potensialı, regionun investisiya cəlbediciliyi;

- ölkənin regionlarının differensiasiyasını nəzərə almayan, nəzərə alınan məhdud göstəricilər toplusu;

- yekun qiymətləndirmədə yüksək səviyyəli subyektivliyin yaranmasına səbəb olan amillərə ekspert qiymətləndirməsindən daha çox üstünlük verilməsi;

- məcmu göstəricilərin qiymətləndirilməsi üçün amillərin seçilməsi prinsiplərinin kifayət qədər əsaslı olmaması;

- investorlar üçün kapital qoyuluşu ilə bağlı qərarlar qəbul edərkən reytinqin nəticələri haqqında məlumatdan (konkret sənaye maraqları çərçivəsində) istifadə etmək üçün real imkanın olmaması;

- sənaye xüsusiyyətlərini və investorların ayrı-ayrı qruplarının prioritetlərini nəzərə almadan metodların əsasən ümumi xarakteri.

Əksər metodoloji tələblərə ən uyğun olan hesab edilən investisiya mühitinin qiymətləndirilməsi üçün faktorial metoddur. Onun üstünlüklərinə aşağıdakılar daxildir: bir çox amillərin qarşılıqlı təsirini nəzərə almaq; ekspert qiymətləndirmələrinin subyektivliyini əhəmiyyətli dərəcədə azaldan statistik məlumatların istifadəsi; investisiya mənbələrindən maksimum səmərəli istifadə etməyə imkan verən regionlara differensial yanaşma.

İnvestisiya potensialının xüsusiyyətlərinə dair tərtib edilmiş əlavə metodoloji tələblər onun qiymətləndirilməsinin faktorial metodunun təkmilləşdirilməsi üçün bir sıra istiqamətlər təklif etməyə imkan verir:

1. qiymətləndirmədə istifadə olunan məlumatların əlçatanlıq dərəcəsini artırmaq lazımdır, yəni seçilmiş göstəricilər rəsmi dövlət statistikasında təqdim edilməlidir;

2. nəzərdən keçirilən göstəricilərin tərkibindən qiymətləndirilməsi çətin olan amilləri çıxarmaq daha yaxşıdır;

3. istifadə olunan ekspert qiymətləndirmələrini, subyektivlik səviyyəsini azaldacaq müxtəlif çəki əmsallarını minimuma endirmək lazımdır;

4. hesablamaları sadələşdirmək üçün göstəricilər toplusu kiçik sayda məhdudlaşdırılmalı, eyni zamanda regionların investisiya potensialının tərkib elementlərinin kifayət qədər tam əhatə olunmasını təmin etməlidir.

Yuxarıda qeyd olunanlarla əlaqədar olaraq, regionun investisiya potensialının qiymətləndirilməsi metodologiyası işlənib hazırlanmalıdır ki, bu da faktorial qiymətləndirmə metodunun mexanizmini təkmilləşdirməyə imkan verəcək. Regional sosial-iqtisadi sistemin kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin müxtəlifliyi o qədər böyükdür ki, çoxlu sayda göstəricilər bir-biri ilə bağlıdır. Onların qiymətləndirilməsi prosedurunu sadələşdirmək üçün qarşılıqlı əlaqəli amillərin alt sistemlərinin formalaşdırılması zəruri olur. Nəticədə ərazinin sosial-iqtisadi sisteminin müxtəlif aspektlərini əks etdirən bir sıra özəl potensiallar formalaşır. Ayrı-ayrı amillərin regionun investisiya potensialına təsirinin öyrənilməsi amillərin təsirini əks etdirən özəl potensialın öyrənilməsi yolu ilə həyata keçirilir.

Regionun investisiya potensialının ümumiləşdirilmiş qiymətləndirilməsi üçün təbii-coğrafi, sənaye, maliyyə, innovativ, infrastruktur və sosial potensiallar çərçivəsində göstəricilərin hesablanmasını əhəmiyyət daşıyır. İnvestisiya potensialının komponentlərinin bu dəsti mübahisəlidir. Onun sistemləşdirilməsi variantları, məsələn, göstəricilərin cəmləşmə dərəcəsindən asılı ola bilər. Buna baxmayaraq, investisiya potensialının qiymətləndirilməsinə bu cür sistemli yanaşma təkcə amillərin regional investisiya kompleksinə təsirini müxtəlif aspektlərdən qiymətləndirməyə deyil, həm də sistemin vəziyyətinə həlledici təsir göstərən ən mühüm, əsas səbəbləri müəyyən etməyə imkan verir.

Şəxsi potensiallar və ya alt sistemlər regional investisiya potensialının daşıyıcıları olan bir sıra amilləri əhatə edir. Regionların investisiya kompleksi məsələləri ilə məşğul olan hər bir tədqiqatçı qiymətləndirmənin aparıldığı öz amillərinin spektrini müəyyən edir. Eyni zamanda, nəzəri cəhətdən təhlildə istifadə

edilə bilən regionun investisiya potensialının xüsusi amillərinin sayı sonsuz dərəcədə böyükdür.

Lokallaşdırma və adambaşına istehsalın əmsallarını hesablayaraq, regionun inkişafının sahəvi xarakterini müəyyən edən iqtisadi fəaliyyətin əsas, ilkin növlərini müəyyən etmək olar. Bunu etmək üçün əmsalların əldə edilmiş dəyərlərini vahid kimi götürülmüş orta səviyyə ilə müqayisə etmək lazımdır: bu səviyyəni aşan dəyər bölgənin bu fəaliyyət növündə ixtisaslaşdığını göstərir. Təklif olunan metodologiya çərçivəsində hesablamaların üç mərhələsinin ardıcıl həyata keçirilməsi potensial investora təkcə investisiya potensialının dərəcəsinə görə onu maraqlandıran regionları sıralamağa və regionun ixtisaslaşdığı konkret fəaliyyət növlərini müəyyən etməyə imkan verəcək (Шевелева О.Б.., Начева М.К.2012).

# III FƏSİL. İNVESTİSİYA SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ VƏ İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. İşğaldan azad olunmuş rayonlara əhalinin qayıdışı planı istiqamətində görülməsi zəruri olan tədbirlər

Ali Baş Komandan İlham Əliyevin uğurlu, uzaqgörən siyasəti və müzəffər ordumuzun qəhrəmanlığı sayəsində şanlı qələbə ilə başa çatan İkinci Qarabağ Müharibəsi işğal olunmuş ərazilərin azad edilməsinə, eləcə də erməni işğalçılarının törətdiyi dağıntıların tam üzə çıxarılmasına səbəb olub (http://eco.gov.az/az/nazirlik/xeber?newsID=11228). Bir daha məlum oldu ki, otuz ilə yaxın davam edən işğal zamanı erməni vandalları Azərbaycanın işğal olunmuş ərazilərində irimiqyaslı qanun pozuntularına yol verib, infrastrukturu demək olar ki, tamamilə dağıdıblar. Xüsusilə Ağdam məsələsində biz bunun şahidi olduq. (https://xalqqazeti.com/pdf/xalq%2025%20apr%20OPT.pdf).

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, işğal nəticəsində Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə, bioloji müxtəlifliyə ciddi ziyan vurulmuşdur və Azərbaycan təbiəti dağıntılara məruz qalmışdır (http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf).

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2020-ci il 29 oktyabrda imzaladığı Fərman ilə verilən tapşırıqlara əsasən işğaladan azad edilmiş torpaqlarımızda ekoloji tarazlığın bərpası, eyni zamanda, fauna və floranın, su ehtiyatlarının, faydalı qızıl yataqlarının, meşə ehtiyatlarının qiymətləndirilməsi istiqamətində təkliflərin hazırlanması üçün tədbirlərə başlanılmışdır (http://eco.gov.az/az/nazirlik/illik-hesabat).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il 10 dekabr tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamında işğaldan azad edilən ərazilərin və mədəni-tarixi abidələrin bərpası istiqamətində tədbirlərin həyata keçirildiyini vurğulamışdır. Ermənistanın işğalından azad edilmiş ərazilərimizin milli

iqtisadiyyata sürətli şəkildə inteqrasiyası və dayanıqlı inkişafın təmin olunması da həyata keçirilən tədbirlər sırasındadır (https://president.az/az/articles/view/54575).

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda quruculuq, təmir-bərpa işləri həyata keçirilir. Tarixi qələbə ilə nəticələnən Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə bərpa prosesinə başlanılması, bu ərazilərdə elektrik enerjisinin təminatı, həmçinin, infrastrukturun formalaşdırılması Qarabağ və Şərqi Zəngəzurun bərpasının Azərbaycan üçün prioritet məsələ olduğunun göstəricilərindəndir (https://azertag.az/xeber/Olkemizin_potensial_imkanlari_isgaldan_azad_edilmis_erazilerin_berpasina_ve_yeniden_qurulmasina_seferber_edilib-2104847).

Prezidentimiz cənab İlham Əliyevin aprelin 21-də Köndələnçay su anbarında aparılacaq təmir-bərpa işləri, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi ilə tanış olması işğaldan azad olunmuş ərazilərin bərpasının hazırda prioritet istiqamətlərdən olduğunu deməyə əsas verir (https://president.az/az/articles/view/55855).

Prezidentimiz Vətən müharibəsindəki parlaq qələbəmizdən bu günədək işğaldan azad edilmiş ərazilərdə çoxsaylı səfərlərdə olub, düşməndən təmizlənən ərazilərdə infrastruktur açılışlarının açılışını edib. Bu ərazilərdə tikinti-abadlıq işlərinin miqyası genişlənməkdə davam edir (https://xalqqazeti.com/pdf/xalq%204%20mart%202022%20OPT.pdf).

2020-ci il 24 noyabrda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Respublikamızın işğaldan azad olunmuş ərazilərində Əlaqələndirmə Qərargahı yaradılmışdır. Qərargahın yaradılması həmin ərazilərdə məsələlərin mərkəzləşdirilmiş formada həll olunması ilə əlaqədardır. Bu Sərəncama əsasən, Qərargahın nəzdində İdarələrarası Mərkəz yaradılıb. Mərkəzin yaradılmasında məqsəd mühüm analitik-təşkilati dəstəyin göstərilməsi və kommunikasiya funksiyasının yerinə yetirilməsi olmuşdur (https://medeniyyet.az/page/news/54906/). Qərargahın rəhbəri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunan videoformatda keçirilən müşavirədə qeyd etmişdir ki, Mərkəzin nəzdində cənab prezidentin

tapşırığına əsasən, sosial, humanitar, iqtisadi, hüquqi və s. müxtəlif işçi qrupları yaradılmışdır (https://president.az/az/articles/view/49933).

Görülən tədbirlərə əlavə olaraq, 2020-ci ilin fevralında təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" sənədi çərçivəsində "azad edilmiş ərazilərə genişmiqyaslı qayıdış" beş prioritetdən biri kimi müəyyən edilib. Sənəd bu prioritetin uğurla həyata keçirilməsi üçün iki məqsəd müəyyən edir: dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya. Bu məqsədlər həyata keçirilərkən rayonun iqtisadi potensialından səmərəli istifadə etmək, məskunlaşma səviyyəsini işğaldan əvvəlki səviyyəyə çatdırmaq, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi fəallığında payını işğaldan əvvəlki səviyyəyə çatdırmaq lazımdır. Ona görə də işğaldan azad edilmiş ərazilərin bərpası təkcə Qarabağ bölgəsinin deyil, bütövlükdə Azərbaycanın iqtisadiyyatı üçün də böyük əhəmiyyət kəsb edir (https://president.az/az/articles/view/50474).

Bərpa prosesinin formasını müəyyən etmək üçün nəqliyyat, enerji, şəhərsalma və digər sahələrdə layihələri və məqsədləri nəzərdən keçirəcəyik.

Nəqliyyat sektorunda birinci dəfə uğurla sona çatdırılan layihə kimi Tərtər rayonunun Suqovuşan kəndi və Talış kəndinə istiqamətlənən yolların yenidən qurulması olub. Sözügedən bu yol, ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Ümumilli lideri ulu öndər Heydər Əliyevin göstərişi əsasında tikilmişdir (http://www.aayda.gov.az/az/news/2823).

Düşmənlərdən azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdən biri olan Toğanalı-Kəlbəcər avtomobil yolunun tikintisidir. Bu yolun inşası hal-hazırda davam etdirilir. Bəzi ərazilərdə suötürücü boruların inşa prosesi yekunlaşmış, 26-cı kilometrlik hissədə əlavə bir su kanalının tikintisi davam etdirilir (https://apa.az/az/infrastruktur/toganali-kelbecer-istisu-yolunun-tikintisi-davam-edir-foto-video-698821). Tikinti işlərinin 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulub və bu proses Azərbaycan Avtomobil Yolları Dövlət agentliyi tərəfindən yüksək səviyyədə icra olunur (http://www.aayda.gov.az/az/news/3579/toganali-kelbecer-istisu-yolunun-ve-murovdag-tunelinin-insasi-davam-etdirilir).

Bərpa prosesində avtomobil yolları ilə yanaşı, dəmir yollarının tikintisi və yenidən bərpasıı əhəmiyyətli yer tutur. Bu dəmir yollarından biri də şərqdən Qarabağa hərəkət etməyə imkan verən Bərdə-Ağdam dəmir yoludur (http://www.aayda.gov.az/az/news/3400/berde-agdam-avtomobil-yolunun-tikintisi-suretle-davam-etdirilir).

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən dəmir yolları proyektlərinin qurulması və inşa edilməsi üçün ilkin olaraq 5 milyon manat vəsait ayrilmışdır (https://president.az/az/articles/view/47740). Bu yol işğaldan azad olunmuş Ağdam şəhərinə qədər inşa olunur. Bərdə-Ağdam maşın yolu Bərdə və Ağdam şəhərləri və sözügedən rayonların iyirmidən çox kənd və qəsəbələri təşkil edir (http://www.aayda.gov.az/az/news/3400/berde-agdam-avtomobil-yolunun-tikintisi-suretle-davam-etdirilir).

Eyni zamanda, 2021-ci il fevralın 14-də dövlətimizin başçısı cənab İlham Əliyev Horadiz-Ağbənd dəmir yolunun təməlini qoymuşdur. Bu, Zəngəzur dəhlizinin açılmasında rellaşması qarşıya məqsəd kimi qoyulan layihələrdən bir idi (https://xalqqazeti.com/pdf/xalq%204%20mart%202022%20OPT.pdf). Bu xətt Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməyə xidmət edəcək (https://www.fhn.gov.az/newspaper/?az/news/view/9449). Bu layihənin birinci mərhələsində reallaşması planlaşdırılan tikinti işlərinin 70 faizdən artıq hissəsi demək olar ki, tamamlanmışdır (https://xalqqazeti.com/pdf/xalq%204%20mart%202022%20OPT.pdf).

Bundan başqa, beynəlxalq logistika üçün yeni beynəlxalq yol xarakteri daşıyacaq (https://president.az/az/articles/view/55936).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2021-ci il yanvarın 14-də bu hava limanının və Füzuli-Şuşa yolunun təməlini qoymuşlar. Füzuli Beynəlxalq Hava limanın inşası cəmi 8 ay ərzində həyata keçirilmişdir. Prezidentimiz bu hava limanını “ Qarabağın hava qapısı” elan etmişdi. Bu, Qarabağımızın ölkəmizin iqtisadiyyatına reinteqrasiyası nöqteyi-nəzərindən əhəmiyyətlidir. Bu hava limanının əsas məqsədi işğaldan azad edilmiş ərazilərə, xüsusilə Şuşaya xarici qonaqların və turistlərin gəlməsini təmin

etməkdir. Xarici qonaqlar çox rahat və qısa müddətdə Füzuli-Şuşa avtomobil yolu ilə Füzuli Beynəlxalq Hava Limanına və Şuşaya çata biləcəklər (https://president.az/az/articles/view/50184).

İşğaldan azad olunmuş ərazilərin sürətli inkişafı və bu ərazilərdə turizm potensialının tam şəkildə reallaşdırılması üçün hava limanlarının tikintisi əhəmiyyətlidir. Birinci hava limanı layihəsi Füzuli Beynəlxalq Hava Limanı layihəsi olmuşdur.

Füzuli Beynəlxalq Hava limanı ilə yanaşı, işğaldan azad edilmiş Laçın və Zəngilan rayonlarında da hava limanlarının tikintisi istər sosial-iqtisadi, istərsə də strateji baxımdan olduqca əhəmiyyətlidir. Zəngilan Beynəlxalq Hava Limanının bu il istifadəyə verilməsi nəzərdə tutulub. İşğaldan azad olunmuş ərazilərimizdə Füzulidən sonra 2-ci beynəlxalq hava limanı məhz bu hava limanı olacaq. Laçın Beynəlxalq Hava Limanının tikilməsi isə 2024-cü ilə planlaşdırılır (https://www.sosial.gov.az/en/post_539234).

İşğaldan  azad edilmiş rayonlarda enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsi bərpa prosesininin ilk günündın diqqətdə saxlanılan məsələlərdəndir (https://xalqqazeti.com/pdf/xalq%204%20mart%202022%20OPT.pdf).

2021-ci il mayın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən düşmənlərdən təmizlənən ərazilərimizdə "Yaşıl enerji" konsepsiyasının təbiqi prosesi uğurla yerinə yetirilməkdədir (https://files.preslib.az/projects/regions/r4/a3_3.pdf).

"Yaşıl Enerji  Zonası"nın təşkili enerjinin bərpa olunan mənbələrdən əldə olunması ilə yanaşı, bu enerjinin istehlakı, ötürülməsi və s. kimi məsələlərdə effektiv və ekoloji təmiz sistemlərdən istifadəni əsas götürmüşdür (https://azertag.az/xeber/Azerbaycan_energetikasinin_yeni_dovru_Qarabag_ve_Serqi_Zengezurdan_baslayir-1904454).

Qarabağ və Şərqi Zəngəzurun potensial imkanları burada günəş, su və külək enerjisindən effektiv istifadəyə əlverişli şərait yaradır. (https://xalqqazeti.com/pdf/xalq%204%20mart%202022%20OPT.pdf). Qarabağ və Şərqi

Zəngəzurda su elektrik stansiyaları artıq tikilərək istifadəyə verilib (https://xalqqazeti.com/mobile/az/news/100426).

Azərbaycan ordusunun şanlı qələbəsi ilə nəticələnən müharibədən sonrakı dövrdə "Güləbird" və "Kəlbəcər-1" Su Elektrik stansiyalarının, eləcə də, Şuşa, Kəlbəcər, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayılda yarımstansiyaların istifadəyə verilməsi bölgədə dayanıqlı enerji təminatını şərtləndirir (https://azertag.az/xeber/Olkemizin_potensial_imkanlari_isgaldan_azad_edilmis_erazilerin_berpasina_ve_yeniden_qurulmasina_seferber_edilib-2104847).

Bundan başqa, Cəbrayıl rayonunda "Xudafərin" və "Qız Qalası" layihələrini icrası uğurla həyata keçirilməkdədir. Cari ilin aprel ayında Cəbrayıl rayonuna mediatur təşkil olunmuşdur və bu zaman "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarına aid bəndlərin tikintisinin 99 fazi başa çatdırıldığı bildirilmişdir (https://www.azerbaijan-news.az/az/posts/detail/xudaferin-ve-qiz-qalasi-hidroqovsaqlarina-aid-bendlerin-tikintisi-yekunlasmaq-uzredir-1650359224).

İşğaldan azad edilmiş ərazilərin bərpası yol, enerji strukturları ilə məhdudlaşmır, eyni zamanda, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri də diqqətdə saxlanılan məsələlərdəndir (https://xalqqazeti.com/pdf/17%20fevral%202022.pdf). İlk "ağıllı kənd" layihəsi Zəngilan rayonunda tətbiq olunmuşdur. Ağalı kəndində icra olunan bu layihə dağıdılaraq yararsız hala düşmüş torpaqlarımızda müasir texnologiyalar əsasınada bərpa-quruculuq işlərini ehtiva edir. Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan bu konsepsiyasının əsasını yaşayış sahələri, "Ağıllı kənd təsərrüfatı" və alternativ enerjidən istifadə təşkil edir. Bu layihə təkcə kənd təsərrüfatı sahəsini deyil, eyni zamanda, şəhərsalmada istifadə olunan standartları, ekoloji evlərin tikintisini, su elektrik və günəş paneli stansiyalarının tikilməsini , bioqaz enerjisindən istifadə və s. komponentləri özündə birləşdir (https://vergiler.az/news/social/12002.html). Ağalı kəndində "Ağıllı kənd"in tikinti işləri artıq yekunlaşmaq üzrədir.

İkinci "Ağıllı kənd"in təməli isə Füzuli rayonunun Dövlətyarlı kəndində qoyulub (https://report.az/ask/azerbaycanin-ilk-agilli-kend-inin-insasi-basa-catib/).

Həyata keçirilməkdə olan tədbirlər planının mühüm bir hissəsini təşkil edən məsələ Qarabağın mütəmadi inkişaf etdirilməsi və ölkə həyatına hərtərəfli reinteqrasiya etməsdir. Cənab Prezident İlham Əliyevin tapşırığına əsasən bu proseslər uğurla irəliləyir. Düşmən işğalından azad etdiyimiz torpaqlarda infrastrukturun təmin olunması prioritet məsələlərdəndir. Buna nail olmaq üçün isə şəhərsalma tədbirlərinin ön plana keçməsi zərurəti yaranır (Əliyeva T., 2021).

Düşmənlərdən azad etdiyimiz torpaqlarımızın investisya potensialı yerli və beynəlxalq səviyyədə təşkil olunan tədbirlərdə investorlara təqdim olunması bu torpaqlarımızın yenidən çiçəklənməsi və inkişafı baxımından olduqaca əhəmiyyətlidir. 2020-ci il noyabrın 18-21-də ölkəmizin işğaldan azad edilmiş torpaqlarının investisiya, eyni zamanda iqtisadi potensialı Türkiyənin İstanbul şəhərində “MUSİAD Expo-2020” beynəlxalq sərgisində nümayiş etdirilib. Ölkəmizin sərgidə təmsil olunduğu stend “Qarabağ Azərbaycandır” (“Karabakh is Azerbaijan”) adlandırılıb. Bu stend Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən təşkil olunmuşdur və Qarabağın incisi Şuşa qalasının və Şuşa şəhərində yerləşən Yuxarı Gövhər Ağa məscidinin formasında dizayn olunmuşdur. Bu sərgi ölkəmizin “Qarabağ Azərbaycandır” (“Karabakh is Azerbaijan”) şüarı ilə təmsil olunduğu ilk beynəlxalq sərgi idi. Burada 30 ildən çox işğal altında qalmış, 44 gün davam edən Vətən müharibəsində işğaldan azad edilmiş torpaqlarımızın investisiya potensialını, mədəni irsini və iqtisadi imkanlarını təcəssüm etdirən foto və video materiallar bir araya cəmlənərək sözügedən sərgidə nümayiş olunmuşdur (https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pdf).

2021-ci ilin okytabr ayında isə Bakıda “Rebuild Karabakh” – “Qarabağın Bərpa, Yenidənqurma, və İnkişaf” sərgisi təşkil olundu. Burada 17 ölkədən olan 270-dən çox şirkətin məhsulu təqdim olundu (https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e62932_az.html).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə çıxışlarında işğaldan azad edilmiş torpaqların bərpa prosesində dost ölkələrin iştirakını görmək istədiyini bildirib və ölkəmiz hər zaman olduğu kimi, bu dəfə də yenidənqurma prosesində müttəfiqlik münasibətlərinə sadiq qalmışdır.

İşğaldan azad etdiyimiz ərazilərdə həyata keçirilən yenidənqurma işlərində qardaş Türkiyə eynilə müharibə dövründə olduğu kimi, bərpa prosesində də öz dəstəyini göstərir.

Türkiyənin "Kolin İnşaat" şirkəti qələbəmizlə nəticələnən müharibədən sonra infrastruktur quruculuğu ilə əlaqəli işlərin yerinə yetirilməsini öz üzərinə götürdü. Bu şirkət Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisində də iştirak edir.

Bundan başqa, Azərbaycan İnnovasiyalar Agentliyi Türkiyənin GOSB (Gebze Organize Sanayi Bölgesi) texnoparkı ilə işğaldan azad edilmiş ərazilərdə texnopark yaradılmasına dair memorandumu imzalayıb (https://science.gov.az/az/news/open/16136).

İşğaldan azad olunmuş torpaqlarımızda yenidənqurma işlərində artıq Çin şirkətləri də yaxından iştirak edirlər. İsrail şirkətləri də bu ərazilərimizə investisiya qoyulmasında maraqlıdırlar. Düşmənlərdən təmizlənmiş ərazilərimizdə bərpa proqramında iştirak edən dövlətlərdən biri olan Macarıstanın Exim Bankı bu proqramda iştirak etmək istəyən macar şirkətlərinə 100 milyon dollar həcmində kredit xətti açıb.

Bərpa quruculuq işlərində ölkəmizə dəstək olan ölkələrdən biri də İtaliyadır. Belə ki, "Ansaldo Energia" şirkəti ilə Azərenerji ASC arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. İngiltərənin BP şirkəti də yenidənqurma prosesində iştirak etmək istədiyini bildirib. Bu böyük şirkətlə imzalanan icra müqaviləsinə görə, Cəbrayıl rayonunda günəş-elektrik stansiyasının inşası qərara alınıb.

ABŞ, Rusiya, Pakistan, Səudiyyə Ərəbistanı, Ukrayna kimi ölkələrə məxsus şirkətlər də düşməndən azad edilmiş torpaqlarımızda rekonstruksiya proqramında iştirak etmək niyyətində olduqlarını bildirən şirkətlər arasında yer tutmaqdadırlar (https://xalqqazeti.com/az/news/95868).

## 3.2. Həyata keçirilməsi nəzərdə tutulan kompleks tədbirlər planının məşğulluq siyasətinə və əhalinin rifah səviyyəsinə təsirinin qiymətləndirilməsi

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qüdrəti sayəsində işğaldan azad edilmiş torpaqlarımıza "Böyük

Qayıdışın" təmin olunması məqsədi ilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, tədbirlər planı hazırlanmış və bu istiqamətdə işlər uğurla həyata keçirilməkdədir. Bu ərazilərdə sosail-iqtisadi, təşkilati,eyni zamanda, bu istiqamətdə fəaliyyətin əlaqələndirilməsi üçün və s. məqsədlə Əlaqələndirmə Qərargahı və bunun da nəzdində müxtəlif məsələlər üzrə işçi qruplarından ibarət İdarələrarası Mərkəz yaradılmışdır. Mərkəzin yaradılmasında məqsəd kommunikasiya funksiyasının təmin edilməsi, eyni zamanda, lazımi analitik- təşkilati yardımın göstərilməsi olmuşdur (https://president.az/az/articles/view/47738).

Düşmənlərdən təmizlənmiş ərazilərdə işğalçı dövlət tərəfindən dağıdılmış torpaqlarımızda bərpa-quruculuq işlərinin aparılması, dayanıqlı məskunlaşma naminə layiqli həyatın, iqtisadi fəallığın təmin olunması və rifahın mütəmadi yüksəlməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs təşkil olunmuşdur (https://president.az/az/articles/view/49876).

İyirminci əsrin axırları ölkəmizin çətin dövrləri kimi yadda qalsa da davamlı və qətiyyətli inkişaf sayəsində Azərbaycan dünyada yaşam səviyyəsinin müasir və təhlükəsizliyi ilə yadda qalan ölkələr sırasında yer alır. Çox qısa bir müddət ərzində beynəlxalq sferada da Azərbaycana maraq və hörmət artmış, inkişaf etmiş ölkələr ilə bir çox əməkdaşlıq müqavilələri imzalanmış, sosial və iqtisadi baxımdan yeni infrastrukturun yaradılması prosesləri uğurla yerinə yetirilərək sürətli inkişaf dinamikası əldə edilmişdir.

İqtisadi inkişafın əhəmiyyətli ünsürlərindən olan yüksək maliyyə imkanlarımız ölkəmizin makroiqtisadi baxımından sabitliyinə, eyni zamanda, artım göstəricisinə mühüm töhfə verərək güclü təhlükəsizlik potensialı yaradıb. İşğaldan azad etdiyimiz torpaqlarda ölkədaxili və xarici nəqliyyat və logistika dəhlizlərinin istifadəsi ölkə iqtisadiyyatının inkişafında güclü təsirləri olacaqdır. Azad olunmuş ərazilərimizin iqtisadiyyatımıza nüfuz etməsi də öz müsbət təsirlərini göstərəcəkdir.

İqtisadi və ticarət əlaqələrimizin davamlı olaraq inkişafı, təhlükəsiz, sabit yaşam standartlarının mövcudluğu, rifah səviyyəsi və yüksək qarşılıqlı faydalı əməkdaşlığın inkişafı Cənubi Qafqazın qabaqcıl ölkəsi olan Azərbaycanın regionda

iqtisadi və sosial yönümlü əlaqələrin müəyyənləşdirilməsində mövqeyi daha da gücləndirəcək.

Siyasi və iqtisadi sahədə aparılan islahatların uğurlu nəticələri Azərbaycanın qüdrətinin gələcəkdə daha da yüksələcəyinə inam yaradır. Bunlar da öz növbəsində, Azərbaycanın iqtisadi müstəqilliyinin güclənməsinə və ölkəmizin 2030-cu ilə qədər yüksək yaşam standartlarına malik inkişaf etmiş sosial cəmiyyətə sahib bir ölkə olmasına təminat verir. Dövlətimiz əhalinin rifah səviyyəsinin daim yüksək səviyyədə olması naminə sosialyönümlü bazar iqtisadiyyatının inkişafı lehinə seçim etmişdir (https://xalqqazeti.com/mobile/az/news/69978).

Milli ictimai rifahın davamlı artımını təmin etmək üçün yüksək, dayanıqlı, xüsusilə özəl səylərə istiqamətlənən iqtisadi artımın sürətləndirilməsi, əhalinin öz doğma yurd-yuvalarına geri dönərək yerləşməsinin reallaşması ölkənin inkişafı üçün əsas prioritetlərindəndir. Bundan başqa, cəmiyyət, biznes və dövlətin əlaqələrinin güclənməsi ölkənin inkişaf perspektivi üçün faydalı olacaqdır. Azərbaycanda özəl təşəbbüsün kreativ və dinamik formada geniş vüsət alması, mövcud resursların effektiv diversifikasiyasının təmin edilməsi iqtisadi potensialımızı daha da artıracaq (https://president.az/az/articles/view/50474).

2030-cu ilə qədər sosial və iqtisadi inkişafa xidmət edəcək 5 Milli prioritet nəzərdə tutulmuşdur) :

1.Hər bir sahədə olduğu kimi iqtisadiyyatın rəqabətqabiliyyətli formada və müntəzəm inkişaf tendensiyası əsasında formalaşdırılması;

2. Sosial cəhətdən bərabər hüquqlu cəmiyyətin formalaşdırılması:

3. İnnovasiyalara açıq, rəqabətə davamlı insan resurslarının mövcudluğu;

4. Azad etdiyimiz torpaqlara əhalinin qayıdışı:

5. Yaşıl iqtisadiyyatın genişləndirilməsi və ekoloji cəhətdən təmiz ətraf mühitin yaradılması.

Bu prioritetlər BMT-nin "2030 Gündəliyi"ndə öz əksini tapan məsələlərin tətbiqində də vacib rol oynayır. Uzun zaman kəsiyində davamlı inkişaf üçün balanslı iqtisadi artım vacib faktordur. Sözügedən prioritetin tətbiqi üçün davamlı iqtisadi artım tempi əldə etmək və istər yerli, istərsə də kənar təsirlərin neqativ cəhətlərinə

qarşı tədbirlər görmək qarşıya məqsəd kimi qoyulmuşdur. Cəmiyyətin rifahına səviyyəsinə birbaşa müsbət təsir göstərən amillərdən biri də məhz iqtisadi artımdır.

Hal hazırda neft sektoru ölkəmizin iqtisadiyyatının ana sütununu təşkil etsə də qeyri-neft sektorunun payının artırılması diqqət mərkəzində olan əsas məqsədlərdən biridir. Çünki iqtisadiyyatın diversifikasiyası, müxtəlif məhsul və xidmət sahələri üçün ixrac imkanlarımızın maksimum səkildə istifadə edilməsi baxımından alternativ hərəkətverici qüvvələrin üzə cıxarılması çox vacib faktordur.

Özəl sektorun, xüsusən də KOB-ların əsas iqtisadi artım və məşğulluq mənbəyinə çevrilməsi üçün biznes mühiti əhəmiyyətli dərəcədə inkişaf etdirilməlidir. Biznes mühitində səmərəli fəaliyyətin təşkili baxımından cəlbedici mexanizmlərin effektivliyi yüksəldilməlidir. Vergi və gömrük sistemi büdcə xərclərinin qarşılanması baxımından əhəmiyyətli olmaqla yanaşı yuxarıda qeyd olunmuş məqsədlərin reallaşdırılması və sahibkarlıq fəaliyyətinə marağın artırılmasına da xidmət etməlidir.

Xarici investisiyaların cəlb edilməsi üzrə görülən işlər çərçivəsində ölkənin milli maraqlarını qorumaqla, xarici investorlar üçün rəqabət mühiti yaratmaqla investisiyaların səmərəli tənzimlənməsinə diqqət yetirilməlidir (https://president.az/az/articles/view/50474).

Məxsus olduğu təbəqədən asılı olmayaraq ölkə əhalisinin hər bir üzvü cəmiyyətin mühüm bir hissəsidir və dövlət daim onları diqqət mərkəzində saxlamalıdır. İşsizlik səviyyəsini minimuma endirmək, yoxsulluq səviyyəsini azaltmaq üçün görülən işlər əhalinin sosial müdafiəsi naminə qayğını artırmaqda önəmlidir. Bundan başqa, maddi baxımdan çətinlik çəkən təbəqə üçün ünvanlı yardımların verilməsi əhalinin rifah səviyyəsinin yüksədilməsi və sosial müdafiəsi istiqamətində əhəmiyyətli xarakter daşıyır.

Ədalətli və effektiv formada təşkil olunan sosial təminat mexanizmi aztəminatlı və həssas təbəqələri, əlilləri, 18 yaşına çatmamış fiziki məhdudiyyətli uşaqları nəzərdə tutmalıdır. Bütün bunlara nail olmaq üçün isə sosial maliyyə yardımlarının layiqli səviyyəsini təmin etmək lazımdır. Təqaüd sisteminin davamlı olaraq inkişaf etdirilməsinə nail olmaq məqsədi ilə maliyyə baxımından sabitliyi gücləndirmək və

ödənilən sığorta haqlarında pensiyaların xüsusi çəkisini artırmaq lazımdır. Əlillərin, o cümlədən 18 yaşadək əlil uşaqların sosial reabilitasiyası üçün zəruri infrastruktur yaradılmalı, bu insanların məşğulluğunun dəstəklənməsi proqramları genişləndirilməli, sosial müdafiəsi gücləndirilməlidir. Əhalinin sosial baxımdan həssas olan təbəqəsinin maraqlarına uyğun şəkildə onlara balanslı və bərabər imtiyazlar təklif edən sosial xidmətlər mexanizmi təşkil edilməlidir.

Uzunmüddətli perspektivdə bölgələridəki vəziyyəti daha da yaxşılaşdıraraq Bakı şəhərində mövcud olan vəziyyətlə pararlel mövqedə inkişaf etdirmək qarşıya qoyulmuş məqsədlərdəndir. Bu kontekstdə hər bir bölgəmizdə müxtəlif istiqamətlər üzrə infrastruktur formalaşdırılmışdır. Potensial kadrların və resursların tam cəlb olunması ilə regionlarımızda iqtisadi baxımdan aktivliyi təmin etmək olar.

İqtisadi durumun əlverişliliyi, lazımi infrastrukturdan istifadə etmə imkanının əlçatanlığı ölkəmizin regionlarının tez bir zamanda irəliləyişində vacib amillərdəndir. Bölgələrin yaşayış səviyyəsinin yüksəldilməsi onların ölkədaxili gəlirdə də payını yüksəldəcəkdir (https://e-qanun.az/framework/46813).

Qlobal iqtisadi-texnoloji dəyişikliklərin olması səbəbilə ölkələrarası rəqabət getdikcə daha da artmaqdadır. Digitallaşma, avtomatlaşdırılmış yeni meyllər və texnoloji tərəqqi bundan sonrakı dövrləri səciyyələndirməyə xidmət edəcəkdir.

Hal hazırda dünyadakı rəqabət şəraitində rəqabət qabiliyyətli insan kapitalının formalaşdırılması hər bir ölkənin əsas prioritetləri sırasındadır. Müasir təhsil, innovasiyalar üçün əlverişli zəminin yaranmasını şərtləndirən əsas amillərə əlverişli imkanlar və insanların sağlamlığı kimi məsələləri misal çəkmək olar.

Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün aşağıdakı istiqamətlərə diqqət yetirmək lazımdır:

- Müasir dövrün tələblərinə cavab verən təhsil sistemi;
- Kreativ və yeniliklərə açıq cəmiyyət;
- Əhalinin sağlam yaşayışı.

Ölkəmizin iqtisadiyyatının uzunmüddətli dövr üçün tərəqqisi müasir və sağlam təhsil sisteminə əsaslanmalıdır. Bununla artmaqda olan dünya rəqabətinə uyğunlaşmaq daha effektiv yanaşma hesab edilə bilər. Təhsil sisteminə xüsusi yer

verməklə insan resurslarının mövqeyini milli sərvətdə artırmaq olar. Strateji dövrdə səriştələrin, bilik və bacarıqların tərəqqisinə yönələn "ömürboyu təhsil" önəm verilməli olan məsələlər sırasındadır.

Həm erkən yaş dövrünü, həm də məktəbəqədər təhsil pilləsini nəzərdə tutan təhsil sistemi bütün yaş kateqoriyalarını əhatə etməlidir. Ümumi təhsilin ölkənin sosial həyatında müstəsna rolu olduğundan onun inkişaf etdirilməsi zəruri məsələlərdəndir. Buna nail olmaq üçün isə dünya təhsil sistemini əsaslı şəkildə təhil edərək müasir sistemə uyğunlaşdırmaq və təsil sahəsində mütəmadi islahatlar keçirmək lazımdır.

Gənc nəsli rəqəmsal texnologiyaların gələcək dövrünə hazırlamaq üçün təhsil sistemi məktəb yaşından rəqəmsal bacarıqların aşılanmasına, onlara yeni bacarıqlar, bu gündən əsaslı şəkildə fərqlənən ixtisas və peşələrə yiyələnməyə diqqət yetirməlidir. Keyfiyyətli təhsil verməklə yanaşı rəqabətə davamlı kadrlar yetişdirmək üçün ilk öncə universitetlər yüksək texnologiyalarla təchiz olunmalı, bütün müasir təhsil standartlarına cavab verməlidir.

Gələcək inkişafımızı texnoloji yeniliklərə və digital cəmiyyətə əsaslanan qüvvələr təmin edəcəkdir. Ekosistemi elə təşkil olunmalıdır ki, o yeniliklərə sürətli şəkildə reaksiya verə bilsin və yenilikləri özündə ehtiva edə bilsin. Bu tip cəmiyyətin mövcudluğu ölkənin rəqabətcil olmasına xidmət edir. Həmçinin müasir ekosistem texnologiyalardan effektiv istifadə ilə mövcud potensialdan tam istifadə edərək iqtisadiyyatın inkişafına təkan verməlidir.

İxracımızın əsas hissəsinin texnoloji avadanlıqlar olmasına nail olmaq üçün dünyada baş verən texnoloji inqilabla ayaqlaşmaq lazımdır. Qeyd olunan hədəflərə çatmaq üçün hasilat sənayesi ilə yanaşı emaledici sənayenin, elmtutumlu sahələrin, xüsusən də yüksək gəlirli texnologiyalı sənaye sahələrinin inkişafına xüsusi diqqət ayırmaq lazımdır. Nəticəyə əsaslanan tədqiqatları təşviq etmək üçün rəqabətli maliyyələşdirmə mexanizmləri yaradılmalıdır.

Ölkə əhalisinin sağlam yaşam şəraiti üçün lazımi tədbirlərin görülməsi zəruridir. Beləliklə, ölkənin istehsal gücünün yüksəldilməsi və vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində müsbət nəticələr əldə etmək mümkündür.

Sağlamlıq və uzunömürlülük bilavasitə ölkədəki səhiyyə sisteminin keyfiyyətindən asılı olacaq. Səhiyyədə müasir innovasiyaların tətbiqində yüksək nəticələr əldə edilməklə, milli gəlirin formalaşmasında keyfiyyətli tibbi xidmətin payı artırılmalıdır.

Ölkəmizin tarixində ərazi bütövlüyümüzün bərqərar olması hər zaman vacib məsələ olmuşdur. Dövlət sərhədlərinin bərpası ilə keçən yüzillikdə ölkəmiz istər hərbi, istərsə də diplomatik sferada qalib gəldi. Ata-baba torpaqlarından didərgin düşmüş insanların təhlükəsiz şəkildə geri qayıtmasını təmin etmək bu qalibiyyətinn daimiliyi naminə görülən vacib işlərdəndir. Eyni zamanda, bu, həmin ərazilərinin yenidən dilbər guşəyə dönməsinə töhfə verəcədir. İşğaldan azad olunmuş torpaqlara qayıdış bu ərazilərin Azərbaycanın ümümilikdə iqtisadiyyatına inteqrasiyası üçün də əsas meyarlardan olacaq. Burada yerli və xarici nəqliyyat-logistika dəhlizini bərpa etmək bu torpaqların yüksəlişini təmin edəcək. Eyni zamanda, Azərbaycanın xarici bazara çıxış imkanlarını genişləndirməsi baxımından bu dəhlizin xüsusi əhəmiyyəti vardır.

Hər bir sferada quruculuq işlərinin yerinə yetirilməsi layiqli həyatın bərqərar olması üçün əhəmiyyətlidi. Bu, eyni zamanda, müasir yaşamı da təmin etməyə xidmət edəcəkdir. Bu prosesin həyata keçirilməsi üçün dövlət və özəl fəaliyyətin birgə iş birliyinə nail olmaq və stimullaşdırma tədbirlərinin genişləndirilməsinə diqqət ayırmaq lazımdır. Bu, işğaldan azad edilmiş ərazilərin Azərbaycana tam inteqrasiyasını təmin etməyin əsas yoludur.

Azərbaycanın tarixi ərazi müstəqilliyinin bərpası əhalinin öz doğma yurdlarına, məskunlaşdıqları yerə qayıtması üçün yeni mərhələ yaradıb. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün bir çox tədbirlər görülməlidir. Bu tədbirlərə müasir və rahat yaşayış şəraitinin yaradılmas məsələləri aiddir. Məskunlaşmanın yeni prinsiplər əsasında həyata keçirilməsi qarşıya qoyulmuş məqsədlərə nail olmağın əsas faktorlarındandır.

Öz doğma yurdlarına qayıtmaları üçün soydaşlarımızın firəvan yaşayışının təmin olunması zəruri məsələlərdəndir. Bu məqsədlə bu ərazilərdə əhalinin rifah

səviyyəsinin yüksəldilməsi üçün şərait yaradılmalı, müasir xidmətlərdən istifadə imkanları təmin olunmalı və əhaliyə mənzillər təqdim edilməlidir.

Burada əvvəlki məskunlaşma səviyyəsini təmin etmək üçün ərazilərin iqtisadi baxımdan mövcud imkanlarından məqsədəuyğun faydalanmaq lazımdır. Bu ərazilərin ölkənin inkişafındakı rolunu bərpa etmək, iqtisadiyyatımızın mühüm hissəsini əhatə etməsini təmin etmək, inkişaf baxımından başqa rayonlarımızla bərabər olmasına önəm vermək lazımdır. Özəl şirkətlərin bu proseslərə cəlb olunmasına marağın artırılması, eləcə də onların dövlətlə birgə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir.

Bölgənin davamlı inkişafı iqtisadiyyatın lazımi resurslara olan tələbatının ödənilməsindən asılı olacaq və təbii sərvətlərin bolluğu və bunun nəticəsində yaranan tarixi imici bu sahələrə investisiya yatırmağa imkan verəcək.

Ekoloji baxımdan təmiz texnologiyalardan, alternativ və təmiz enerji resurslarından istifadənin artırılması qlobal iqlim dəyişikliyinin mövcudluğu zəminində çox əhəmiyyətli addımlardan hesab edilir. Qeyd olunanların effektiv icrası sayəsində istixana qazı emissiyalarını beynəlxalq standartlara uyğun saxlamaq mümkün olacaq.

Respublikamızın iqtisadi artım potensialı ilə paralel olaraq ekoloji cəhətdən ərazilərin yaşıllaşdırılması, təbii resurslardan effektiv və səmərəli istifadə edilməsi baxımından strateji dövrdə yaşıl enerji sahəsinin yaradılması, ekoloji şəraitin yaxşılaşdırılması istiqamətləri prioritet hesab edilir. Ölkə keyfiyyətli və təmiz ətraf mühiti qoruyub saxlamalı, resurslardan səmərəli istifadəni təmin etməlidir. Müxtəlif səbəblərdən qaynaqlana biləcək ekoloji problemlərin araşdırılması, hərtərəfli həlli, sözügedən sahənin dayanıqlı tərəqqisi daim nəzarətdə saxlanılmalıdır.

Növbəti illərdə iqtisadi və demoqrafik artımdan yaranan ekoloji risklər azaldılmalıdır. Bunun üçün ölkənin ümumi ərazisində yaşıllıqların payını artırmaq lazımdır.

Əldə edilmiş iqtisadi artım ilə ətraf mühitin ekoloji vəziyyəti tarazlı şəkildə hərəkət etməlidir. Yararsız torpaqları meliorasiya tədbirləri vasitəsilə bərpa edərək əlverişli torpaq ehtiyyatımızı artırmaq lazımdır. Qlobal məsələlərdən olan şirin su

ehtiyatı probleminin həlli üçün sudan qənaətlə istifadə olunması vacibdir. Strateji dövrdə xüsusilə inkişaf etmiş ölkələrdə alternativ və bərpa olunan enerjidən istifadə səviyyəsi artacaqdır (https://science.gov.az/az/news/open/16136).

Ekoloji baxımdan sağlam olan "yaşıl" texnologiyalar nəinki hazırki, həm də gələcək nəsillərin tələbatlarını qarşılamaq məqsədilə daha geniş formata tətbiq olunmalıdır. Hər bir sahədə istehsal prosesində bərpa oluna bilən və alternativ enerji resurslarından istifadənin payının artırılması hesabına iqlim dəyişikliyinin təsiri azaldılmalıdır. Ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin istifadəsi ətraf mühitə müsbət təsir göstərəcək (https://president.az/az/articles/view/50474).

Bölgədə formalaşan yeni reallıqlar beynəlxalq əməkdaşlığın da formatına öz təsirini göstərir. Belə ki, düşmən tapdağından azad olan ərazilərimizdə yenidənqurma, sosial rifah və məşğulluq konsepsiyası istiqamətindəki layihələri həyata keçirmək məqsədilə xarici investisiya da yerli investisiya ilə bərabər cəlb edilməkdədir (https://xalqqazeti.com/az/news/72576).

Düşmənlərdən azad etdiyimiz torpaqlarımızın investisya potensialı yerli və beynəlxalq səviyyədə təşkil olunan tədbirlərdə investorlara təqdim olunması bu torpaqlarımızın yenidən çiçəklənməsi və inkişafı baxımından olduqaca əhəmiyyətlidir. 2020-ci il noyabrın 18-21-də ölkəmizin işğaldan azad edilmiş torpaqlarının investisiya, eyni zamanda iqtisadi potensialı Türkiyənin İstanbul şəhərində "MUSİAD Expo-2020" beynəlxalq sərgisində nümayiş etdirilib. Ölkəmizin sərgidə təmsil olunduğu stend "Qarabağ Azərbaycandır" ("Karabakh is Azerbaijan") adlandırılıb. Bu stend Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən təşkil olunmuşdur və Qarabağın incisi Şuşa qalasının və Şuşa şəhərində yerləşən Yuxarı Gövhər Ağa məscidinin formasında dizayn olunmuşdur. Bu sərgi ölkəmizin "Qarabağ Azərbaycandır" ("Karabakh is Azerbaijan") şüarı ilə təmsil olunduğu ilk beynəlxalq sərgi idi. Burada 30 ildən çox işğal altında qalmış, 44 gün davam edən Vətən müharibəsində işğaldan azad edilmiş torpaqlarımızın investisiya potensialını, mədəni irsini və iqtisadi imkanlarını təcəssüm etdirən foto və video materiallar nümayiş olunmuşdur (https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pdf).

2021-ci ilin okytabr ayında isə Bakıda "Rebuild Karabakh" – "Qarabağın Bərpa, Yenidənqurma, və İnkişaf" adlı sərgisi təşkil olundu. Burada 17 fərqli ölkədən olan 270-dən çox xarici şirkətin məhsulu nümayiş etdirilib (https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e62932_az.html).

2021-ci il 6 dekabr tarixində Şamaxıda İqtisadiyyat Nazirliyinin, ADA Universitetinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İqtisadiyyat İnstitutunun bərabər təşkil etdiyi "İşğaldan azad olunmuş ərazilərin innovativ inkişaf imkanları mövzusu çərçivəsində konfrans təşkil edilib. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov qeyd edib ki, ilk başlarda əhalinin işlə təmin olunması məsələsi dövlət xətti ilə həyata keçiriləcək. Öz dədə-baba yurdlarına geri dönəcək olan insanların repatriasiyası və reinteqrasiyasına dair qanun layihəsinin ilkin forması artıq hazırdır. Artıq proyekt Nazirlər Kabineti, Prezident Administrasiyası və rəy verilməsi üçün aidiyyatı qurumlara təqdim olunub (https://www.economy.gov.az/article/shamaxida-i-shgaldan-azad-olunmush-erazilerin-innovativ-inkishaf-imkanlari-movzusunda-elmi-praktik-konfrans-kechirilib/32180).

Keçən ilin sonunda Azərbaycan Respublikasının Prezindenti İlham Əliyevin imzaladığı yeni fərman və sərəncamlar prezidentimizin əhalinin sosial rifahına, yaşam səviyyəsinə xüsusi diqqət və qayğısını təzahür etdirir. Görülən işlər ölkəmizdə rifah səviyyəsinin yüksədilməsi məqsədilə ardıcıl olaraq həyata keçirilən sosial islahatlar proqramının müxtəlif istiqamətlər üzrə daha da şaxələnməsinə müsbət təsirlərini göstərir (https://xalqqazeti.com/pdf/17%20fevral%202022.pdf).

Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri Sahil Babayev qeyd edib ki, işğaldan azad etdiyimiz rayonlarda əhalinin yerləşdirilməsi, əhalinin aktiv məşğulluğu, kadr potensialı və iqtisadi aktivliyin təmin edilməsi üzrə lazımi tədbirlər görüləcəkdir. Quruculuq-bərpa işlərinin əsası innovasiyalar və texnoloji tərəqqiyə əsaslanmışdır və bu da öz növbəsində, sosial-iqtisadi inkişafın daha da güclənməsinə şərait yaradacaqdır. Prezidentimiz cənab İlham Əliyev bərpa olunmaqda olan yaşayış sahələrində müasir innovasiyaların tətbiqinə xüsusi diqqət ayırır (https://xalqqazeti.com/pdf/xalq%208%20jun%20OPT.pdf).

İstər regional inkişaf, istərsə də sosial vəziyyətin yaxşılaşdırılması baxımından yol-nəqliyyat infrastrukturunun inşası və bərpası mühüm əhəmiyyət kəsb edir. Bu kimi məsələlər dövvlət proqramlarında daim nəzarətdə saxlanılır. Sosial-iqtisadi baxımdan əhəmiyyət kəsb edən bu cür layihələrin həyata keçirlməsi ilə çoxsaylı iş yerləri açılmışdır.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun bərpasına xüsusi diqqət göstərilmişdir. Bu da öz növbəsində, bu bölgələrin inkişafına imkan yaratmış, yeni vəzifələr müəyyən edilib. İşğaldan azad olunmuş torpaqlarımızda texniki infrastrukturun təmin edilməsi burada inkişafa yol açmaqla bərabər məşğulluğun həllinə də yönəlmişdir.

İcra olunan bütün tədbirlər ölkəmizdə qeyri-neft sektorunun, sahibkarlıq mühitinin inkişafına, iqtisadiyyata investisiya qoyuluşlarının artmasına, eləcə də, yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə imkan yaratmışdır (https://xalqqazeti.com/pdf/25.1.2022%20qazet.pdf).

Cari ilin aprelin 12-də Prezident İlham Əliyev bu ilin I rübünün yekunlarına dair keçirilmiş müşavirədə giriş nitqində bildirmişdir ki, münaqişədən sonrakı dövrdə ölkəmizdə bütün nəzərdə tutulan planlar yerinə yetirilməkdədir. Prezident cənab İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda görülməsi nəzərdə tutulan işlər və planlar barədə məlumat vermişdir. Ölkə üzrə investisiya proqramı çərçivəsində nəzərdə tutulan işlər plan üzrə davam edir. Əhali tərəfindən aidiyyəti qurumlara vətəndaşlar tərəfindən müraciətlər daxil olur və bu müraciətlər hər biri diqqətlə nəzərdən keçirilir. Dövlət başçımız qeyd etmişdir ki investisiya proqramının hazırlanmasında yerlərdən gələn təkliflərə də üstünlük verilir. İkinci Qarabağ müharibəsindəki şanlı qələbəmiz ölkəmizə böyük maraq yaratmış və buna görə də burada biznes əlaqələri qurmaq istəyənlərin sayı kifayət qədər artmışdır. Beynəlxalq ictimaiyyətin ölkəmizə artan hörmət və marağını investisiya layihələrində görmək olur. Xarici sərmayedar tərəfindən tikilən 470 meqavat gücündə olan stansiyalar gələn il istismara veriləcək. Maliyyə naziri Samir Şərifov həmin müşavirədə qeyd etmişdirki, Qarabağın bərpası üçün dövlət büdcəsindən 2.2 milyard manat vəsait ayrılmışdır, birinci rüb ərzində 15 faizdən çox hissəsi artıq icra olunmuşdur. Cari il

ərzində “Azərenerji” tərəfindən 5 elektrik stansiyası bərpa ediləcək və bu stansiyalar 27 meqavat gücə malik olacaq. Digər stansiyaların sahibkarlar tərəfindən bərpası və işlənməsi daha effektiv ola bilər. Bununla həm dövlətin xərc yükünü azaltmaq olar, həm də sahibkarlar üçün əlverişli investisiya kimi qiymətləndirilə bilər. Ölkəmizin digər bölgələri ilə işğaldan azad etdiyimiz bölgələr elektrik xətləri ilə birləşdirildiyinə görə bu rayonlarda istehsal ediləcək enerji ümumi sisteme aid ediləcək. Sahibkarlar üçün bu cür şərait olduqca maraqlı ola bilər. Bu proseslərlə İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası məşğul olur və bir sıra təkliflər irəli sürülüb. Bərpası nəzərdə tutulan stansiyaların yerləri ilə əlaqəli sahibkarlara təqdimat keçirilməsi effektiv nəticə verə bilər. Bir sıra xarici şirkətlər Laçın və Kəlbəcərdə külək elektrik stansiyalarının inşası ilə əlaqədar müraciət edirlər. Bu işlərin icrası üçün həm xarici həm də yerli şirkətləri cəlb etmək lazımdır (https://www.sosial.gov.az/en/post_539234).

Milli iqtisadiyyatın inkişafına və ixracın şaxələndirilməsinə istiqamətlənən islahatlar qeyri-neft sektorunun inkişafına təkan verib. Bu islahatlar çərçivəsində daim diqqət mərkəzində saxlanılan investisiya siyasəti və sözügedən istiqamətdə görülən tədbirlər vacib əhəmiyyət daşıyır. Son dönəmlərdə investisiya mühitinin təkmilləşdirilməsi baxımından vergi və gömrük sahəsində mühüm islahatlar həyata keçirilir. “Yaşıl dəhliz”, elektron satınalma, “bir pəncərə”, kreditlərə əlçatanlıq kimi sahələrdə vacib işlər görülüb. Ölkəmizin siyasi baxımdan sabitliyi, milli, dini, irqi tolerantlığı, güclü iqtisadi potensialı, cəlbedici biznes və investisiya mühiti, əhəmiyyətli tranzit mövqeyi investisiya qoyuluşu baxımından cox müsbət məqamlar hesab edilir. Beynəlxalq müqavilələrdə qeyd olunan öhtəliklərin tam olaraq yerinə yetirilməsi nəticəsində ölkəmiz dünya miqyasında etibarlı tərəfdaş dövlət kimi tanınır. Bundan başqa, bu gun ölkəmiz Avropanın enerji təhlükəsizliyi aspektində çox vacib rol oynayır. Qeyri-neft sektorunun inkişafı kontekstində ölkəyə yatırımların çoxaldılması, ixrac potensialının yüksədilməsi, tərəfdaşların tapılması və əməkdaşlıq proyektlərinin həyata keçirilməsi kimi məsələlər qarşıya qoyulmuş prioritet istiqamətlərdəndir. Xarici dövlətlər ilə ölkəmiz arasında investisiyaların təşviqine dair çoxsaylı müqavilələr imzalanıb. Avropa ittifaqının bir çox üzv ölkəsi

ilə ölkəmiz arasında ikiqat vergitutma ləğv edilib (https://xalqqazeti.com/pdf/xalq%2012%20mar%20OPT.pdf).

2022-ci ilin may ayının 4-də Prezidentimiz cənab İlham Əliyev Zəngilan rayonunun nümayəndəsi Vahid Hacıyevi videoformatda qəbul edib. Dövlət başçımız görüş zamanı qeyd etmişdir ki, Zəngilan rayonu şanlı qələbəmizdən sonra məcburi köçkünlərin öz yurdlarına qayıdacağı ilk rayon olacaq. İlk pilot layihə isə bu rayonun Ağalı kəndində tətbiq olunacaq. Həmçinin, dövlət başçımız qeyd etmişdir ki, sistemli şəkildə həyata keçiriləcək tədbirlər zamanı əhalinin təhlükəsizliyi, məşğulluğu, rifahı, rahatlığı və gələcək inkişafı nəzərə alınacaqdır. Zəngilan dəhlizi həm bizim ölkəmiz, həm də qonşu ölkələr üçün imkanları artıracaqdır. Zəngilan rayonunda həyata keçiriləcək əhəmiyyətli infrastruktur layihələri vardır. Onlardan ən əhəmiyyətlilərindən biri də Zəngəzur dəhlizinin bir parçası olan nəqliyyat infrastrukturudur. Hal hazırda istifadə olunan, Sovet dövründə əsası qoyulan yol yenidən bərpa ediləcəkdir. Yeni dörd və altı zolaqlı magistral avtomobil yolunun inşası sürətlə davam etdirilir. Zəngilandan Qubadlıya və Qubadlıdan Laçına bir neçə zolaqdan ibarət yeni yol inşa edilir. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonuna aid olan rayonların birləşməsinə xidmət edəcəkdir. Zəngilan rayonunun həmsərhəd rayon olması buranın ixrac bazarındakı rolunu xüsusi olaraq artırır və biz bu üstünlükdən maksimum faydalanmalıyıq.

İşğaldan azad etdiyimiz rayonlarda görülməsi nəzərdə tutulan vacib tədbirlərdən biri də əhalinin məşğulluğudur. Ağalı kəndində məşğulluq məsələləri ilə bağlı tapşırıqlar verilmişdir. Keçmiş məcburi köçkünlərin kənd təsərrüfatında, dövlət və özəl müəssisələrdə işləməsi üçün imkanlar yaradılacaqdır. Ərzaq təhlükəsizliyinin başlıca prioritet məsələlərdən olduğu nəzərə alınaraq kənd təsərrüfatı ilə bağlı əhəmiyyətli planlar hazırlanmışdır. Bu planların effektiv tətbiqi nəticəsində idxaldan asılılıq səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşəcəkdir. Bu istiqamətdə məhsuldarlıq, sudan səmərəli istifadə, düzgün əkin yerlərinin seçilməsi əsas məsələlərdəndir. Keçən il Zəngilan rayonunda təməli qoyulan "DOST Aqropark" azad olunmuş rayonlardakı ilk aqroparkdır. Burada hər bir iş plana uyğun şəkildə davam etdirilir və bura nümunəvi aqropark olacaq. Həmçinin həm Cəbrayıl,

həm də Ağdamda sənaye zonaları yaradılmaqdadır. Bərpa prosesi planlı şəkildə, baş planlara uyğun şəkildə aparılmalıdır. Azad etdiyimiz hər bir rayon üzrə görüləcək olan işlər hazırlanmaqda olan və gələcəkdə hazırlanacaq baş planlar çərçivəsində icra ediləcəkdir.

Avropanın 2-ci ən böyük çinar meşəsi olan Bəsitçay təbiət qoruğunun bərpa edilməsi ilə bağlı tapşırıqlar verilib və bu prosesin icrasına başlanılıb. Prezident cənab İlham Əliyev qeyd etmişdir ki, Zəngilan rayonunun çox əhəmiyyətli turizm potensialı var və bu potensial əsaslı şəkildə təhlil edilməli, görüləcək işlərə dərhal başlanılmalıdır. Bu, məşğulluq baxımından çox əhəmiyyətli ola bilər və oraya qayıdacaq olan əhalinin əsas gəlir mənbəyinə çevrilə bilər. Bu ərazilərdə yeni mehmanxanalar, istirahət zonaları yaradılmalı, kənd turizminin inkişafı üçün tədbirlər görülməlidir. Hər bir sahə üçün Avropada tətbiq olunan prinsiplər həyata keçirilməli və əhali üçün rahat yaşam şəraiti yaradılmalıdır (https://president.az/az/articles/view/55936).

Dünya ölkələri arasında əhəmiyyətli nüfuza, güclü iqtisadiyyata malik olan ölkəmiz bir çox yeni proyektləri uğurla həyata keçirərək doğma yurdumuz olan Qarabağımızı cənnət məkana çevirəcək. Ümumilli lider Heydər Əliyevin söylədiyi "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" ifadəsi hər bir vətəndaşda əminlik hissi yaradır ki, ölkəmiz bu prosesləri çox uğurlu şəkildə həyata keçirəcək. Ölkəmizin, dövlətimizin qədrini bilmək, onu göz bəbəyimiz kimi qorumaq, inkişafı üçün əlimizdən gələni etmək hər birimizin vətəndaşlıq borcudur (Kaşiyeva F., 2021).

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İşğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan bu əraziləri regionun ən inkişaf etmiş ərazilərindən birinə çevirməyi qarşısına məqsəd qoyub. İşğaldan azad edilmiş ərazilərdə böyük təbii sərvətlərin və ehtiyatların olması bu məqsədə nail olmağa imkan verir. Nəqliyyat layihələrinin kompleks həyata keçirilməsi və Qarabağın müxtəlif istiqamətlərdə hərəkətinə imkan verilməsi regionun gələcəkdə qonşu dövlətlərlə iqtisadi əlaqələrin əsas tranzit zonasına çevrilməsinə imkan verəcək. Nəticədə region ölkələri arasında ticarət əlaqələri genişlənəcək. Ona görə də işğaldan azad edilmiş ərazilərdə lazımi infrastrukturun yaradılması təkcə Azərbaycan üçün deyil, həm də qonşu dövlətlər üçün vacibdir. Nəqliyyat vasitələrinin, o cümlədən hava limanlarının tikintisi də Qarabağa öz turizm potensialını reallaşdırmağa imkan verəcək. Bu, son nəticədə Azərbaycanda turizm sektorunun inkişafına töhfə verəcək. Qarabağ bölgəsinin bərpası və orada mövcud iqtisadi imkanların bərpası bu ərazilərin ölkə iqtisadiyyatındakı payını işğaldan əvvəlki səviyyəyə çatdırmağa imkan verəcək. Bu, nəinki Azərbaycan iqtisadiyyatının inkişafına imkan verəcək, həm də qeyri-neft sektorunun inkişafına əhəmiyyətli dəstək verəcək. Ümumiyyətlə, Qarabağın sürətli inkişafı regionun hərtərəfli inkişafına töhfə verəcək və Ermənistanın işğalçı siyasəti nəticəsində hələ də istifadə olunmamış imkanların tam reallaşmasına şərait yaradacaq. Qarabağın davamlı iqtisadi inkişafının təmin edilməsi regionda davamlı sülhün bərqərar olmasına və zərərli münaqişələrin təkrarlanmasının qarşısını almağa kömək edəcək.

İşğaldan azad edilmiş ərazilərin işğal olunana qədər üzümçülük, pambıqçılıq, taxılçılıq və heyvandarlıqda xüsusi payı olub. Bu rayonların kifayət qədər kənd təsərrüfatı məhsulları istehsalı və bu istehsal olunmuş məhsulların xarici ölkələrə ixrac edilməsi imkanları çox böyükdür. Azad etdiyimiz bütün rayonlarda , xüsusilə, Füzuli, Kəlbəcər, Şuşa, Zəngilan, Laçında əhəmiyyətli turizm imkanları mövcuddur. Füzuli rayonunda yerləşən qədim yaşayış məskənlərindən olan Azıx mağarası, qədim dövrlərdə inşa edilmiş məscidlər, qalalar və başqa tarixi abidələr, Kəlbəcər rayonunda olan İstisu bu bölgənin turizm rekreasiya imkanlarını genişləndirir.

İşğaldan azad etdiyimiz rayonlara investisiya qoyuluşlarının investorlar üçün iqtisadi baxımdan böyük əhəmiyyətli vardır. Bu torpaqların zəngin xammal, təbii resursları, münasib təbii şəraiti yatırım üçün əsas verən amillərdən sayılır.

Şanlı qələbəmizdən sonra həm ölkəmiz, həm də region üçün yeni reallıqların yarandığını deyə bilərik. Azad etdiyimiz rayonlarda hava limanlarının, nəqliyyat və dəmir yollarının tikilməsi, əlverişli biznes üçün şəraitin yaradılması, ölkəmizin tranzit mövqeyini xeyli gücləndirən Zəngəzur dəhlizinin tikintisi iqtisadi baxımdan ölkəmizə çox yararlı olacaqdır. Bu ərazilərdə infrastrukturun bərpası, biznes mühitinin qurulması və müxtəlif sahələrin fəaliyyətinin formalaşması nəticəsində azad etdiyimiz ərazilərin ümumi ölkə iqtisadiyyatına reinteqrasiyası dayanıqlı inkişafımızın əsas meyarlarından olacaq. Azərbaycan üçün bu ərazilərin beynəlxalq və regional əhəmiyyəti, logistika dəhlizindən effektiv istifadə imkanları iqtisadi inkişaf nöqteyi-nəzərindən perspektivli hesab olunur. İqtisadi əlaqələrin inkişafı, sabitliyin və əhalinin rifah səviyyəsinin yüksəldilməsinin təmin edilməsi regionun iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsində Cənubi Qafqazın lider dövləti olan ölkəmizin rolunu və mövqeyini möhkəmləndirəcəkdir.

Düşünürəm ki, sahibkarlar dövlətimizin onlar üçün təmin etdiyi şərait və imkanlardan düzgün şəkildə istifadə etməli, məhsul və xidmətlərin istehsalında rəqabətqabiliyyətli seçimlər edərək uzunmüddətli inkişaf strategiyası əsasında fəaliyyətlərini təşkil etməlidirlər.

İnvestorların ölkəyə yatırım etməsinin stimullaşdırılması məsələsi həm işğaldan azad etdiyimiz rayonların inkişafı, həm də bütünlükdə ölkə adına iqtisadi artım kontekstində başlıca prioritet istiqamətlərdən olmalıdır. Sərmayeçilər yatırım etməzdən öncə ölkədəki sosial-iqtisadi vəziyyət, investisiya mühiti, bank sistemi, vergi və gömrük sistemi, iqtisadi sabitlik səviyyəsi kimi nüansları araşdırırlar. Bu qeyd edilən istiqamətlərin daim nəzarətə saxlanılması, daha da müasir standartların tətbiqi investisiya təşviqi üçün çox əhəmiyyətli addımlardandır. Azad iqtisadi zonaların yaradılması, vergi və gömrük güzəştlərinin tətbiqi, məsləhət-təlim xidmətlərinin göstərilməsi investorların cəlb edilməsi baxımından effektiv rola malikdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 24 noyabr 2020-ci il.
2. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında"Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 oktyabr 2020-ci il.
3. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərərgahının yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. 24 noyabr 2020-ci il.
4. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. 2 fevral 2021-ci il.
5. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 oktyabr 2020-ci il, N1170
6. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. 13 yanvar 1995-ci il.
7. "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 10 dekabr 2021-ci il.
8. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 4 yanvar 2021-ci il.
9. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il.

10. “İnvestisiya fəaliyyəti haqqında” ümummilli lider Heydər Əliyevin 1995-ci il yanvarın 13-də imzaladığı Azərbaycan Respublikasının Qanunu.

11. Allahverdiyev H.B., Məmmədov Z.T. (2003), “İnvestisiya proseslərinin tənzimlənməsi”, Bakı.

12. Aslanov H. (2012), Xarici investisiyaların cəlb edilməsi və onlara təsir edən amillərin təhlili. Bakı, Dövlət Universitetinin xəbərləri, Sosial-siyasi elmlər seriyası, N1

13. Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H. (2012), “İnvestisiya fəaliyyətinin təşkili”, Bakı.

14. Əliyev Q. (2008), “İnvestisiyaların maliyyələşdirilməsi və kreditləşdirliməsi”, Bakı.

15. Əhmədov M.A., Hüseyn A.C. (2011), “İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları”, Bakı.

16. Əliyeva T., (2001), “İşğaldan azad olunmuş ərazilərdə kommunikasiya problemlərinin həlli yolları”. UNEC Expert, s.30-33, Bakı.

17. Əzizova G. (2012), “Dövlətin investisiya-innovasiya siyasəti”, Bakı.

18. Faydalı biznes və investisiya mühitinə dair vəsait, ATƏT, 2006.

19. Gözəlov Ə. (2008), “Beynəlxalq investisiya hüququ: nəzəri və praktiki əsasları”, Bakı.

20. İsayev S. (2011), “İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi”, Bakı.

21. Kaşiyeva F., (2021) “İşğaldan azad olunmuş ərazilərda infrastrukturun bərpası”. UNEC Ekspert, mart., s.38-39

22. Kaşiyeva F.Ş. (2013), Monoqrafiya, “Azərbaycan banklarının investisiya fəaliyyətinin prioritet istiqamətləri”, Bakı.

23. Məmmədov Ə.C., Seyfullayev İ.Z. (2013), “Vergi və İnvestisiya”, Bakı.

**İngilis dilində**

1. ACCA. "Understanding investors: the changing landscape." The Association of Chartered Certified Accountants. (2013)
2. European Central Bank. Manual on "Investment fund statistics". (2017)

**Rus dilində**

1. Колесникова Н.А. (2000), Финансовый и имущественный потенциал региона: опыт регионального менеджмента. М.: Финансы и статистика. 240 стр.
2. Сухинова С.Е. (2004), Региональная специфика инвестиционного климата. Волгоград: ВолГУ, 82 стр.
3. Шевелева О.Б. и Начева М.К., Сравнительный анализ методик оценки инвестиционного потенциала региона. Экономика и бизнес. ИННОВАЦИИ, 2012, №2 (160), стр.45-59.

**İnternet resursları**

1. https://president.az/az/articles/view/50474
2. https://science.gov.az/az/news/open/16136
3. http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_ 88765600.pdf
4. http://www.anl.az/down/meqale/elm/2021/fevral/765020.htm
5. https://www.economy.gov.az/article/shamaxida-i-shgaldan-azad-olunmush-erazilerin-innovativ-inkishaf-imkanlari-movzusunda-elmi-praktik-konfrans-kechirilib/32180
6. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=11228
7. https://xalqqazeti.com

8. http://eco.gov.az/az/nazirlik/illik-hesabat
9. https://president.az/az/articles/view/54575
10. https://azertag.az/xeber/Olkemizin_potensial_imkanlari_isgaldan_azad_edilmis_erazilerin_berpasina_ve_yeniden_qurulmasina_seferber_edilib-2104847
11. https://president.az/az/articles/view/55855
12. https://medeniyyet.az/page/news/54906/
13. https://president.az/az/articles/view/49933
14. http://www.aayda.gov.az/az/news/2823
15. https://apa.az/az/infrastruktur/toganali-kelbecer-istisu-yolunun-tikintisi-davam-edir-foto-video-698821
16. http://www.aayda.gov.az/az/news/3579/toganali-kelbecer-istisu-yolunun-ve-murovdag-tunelinin-insasi-davam-etdirilir
17. http://www.aayda.gov.az/az/news/3400/berde-agdam-avtomobil-yolunun-tikintisi-suretle-davam-etdirilir
18. https://president.az/az/articles/view/47740
19. https://www.fhn.gov.az/newspaper/?az/news/view/9449
20. https://president.az/az/articles/view/50184
21. https://files.preslib.az/projects/regions/r4/a3_3.pdf
22. https://azertag.az/xeber/Azerbaycan_energetikasinin_yeni_dovru_Qarabag_ve_Serqi_Zengezurdan_baslayir-1904454
23. https://www.azerbaijan-news.az/az/posts/detail/xudaferin-ve-qiz-qalasi-hidroqovsaqlarina-aid-bendlerin-tikintisi-yekunlasmaq-uzredir-1650359224
24. https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e62932_az.html
25. https://president.az/az/articles/view/47738
26. https://president.az/az/articles/view/49876
27. https://www.sosial.gov.az/en/post_539234
28. https://report.az/ask/azerbaycanin-ilk-agilli-kend-inin-insasi-basa-catib/
29. https://vergiler.az/news/social/12002.html
30. http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf
31. https://e-qanun.az/framework/46813

32. https://www.stat.gov.az/source/finance/
33. https://fed.az/az/qarabag/agdamda-ehalinin-70-i-coxmertebeli-binalarda-yasayacaq-107587
34. https://caspiannews.com/news-detail/foreign-countries-express-interest-in-rebuilding-liberated-karabakh-region-of-azerbaijan-2021-1-22-0/
35. https://www.vedomosti.ru/politics/articles/2021/02/19/858725-azerbaidzhan-razrabativaet
36. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/
37. https://www.fitchratings.com

## Şəkillərin siyahısı

**Şəkil 1:** İnvestisiya mühitinin formalaşmasına təsir edən amillər...............................................17

**Şəkil 2**: "Ekspert-RA" nın metodologiyasına əsasən Azərbaycan Respublikasının regionlarının investisiya mühitinin qiymətləndirilməsi.........................................................................................38

**Şəkil 3**: Regionun investisiya potensialının qiymətləndirilməsi üsullarının təsnifatı...................43

## Qrafiklərin siyahısı

**Qrafik 1:** 2010-2020-ci illər ərzində ölkə iqtisadiyyatına yatırılmış həm daxili həm də xarici investisiya məbləğləri.........................................................................................................35